RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 57 (8650) BAZAR, 14 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qarabağ böyük investisiya məkanına çevrilir



## Beynəlxalq təşkilatlar, xarici sərmayəçilər burada reallaşacaq layihələrə maraq göstərirlər

Azərbaycan 44 günlük Vətən müharibəsindəki şanlı Qələbədən sonra regionda qüdrətli geoiqtisadi güc mərkəzlərindən birinə çevrilməkdədir. Hazırda bölgədə yaranmış yeni iqtisadi və siyasi konfiqurasiya dünya ictimaiyyətinin, o cümlədən beynəlxalq iqtisadi təşkilatların diqqət mərkəzindədir.

Bu, bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və müdrik sərkərdəliyi ilə ərazi bütövlüyümüzün təmin edilməsi Azərbaycanın beynəlxalq arenadakı nüfuzunu qat-qat yüksəldib.

### Strateji valyuta ehtiyatlarımız 51,2 milyard dollara yüksəlib

Son 17 ildə İlham Əliyevin müəllifi olduğu mühüm layihələrin, imzaladığı fərman və sərəncamların icrası, həyata keçirdiyi iqtisadi islahatların uğurlu nəticələri Azərbaycanın sürətli inkişafını təmin edib, ölkəmizin dünyanın reytinq hesabatlarında öncül yerlərdə sıralanmasını şərtləndirib.

Davos İqtisadi Forumunun hesabatına nəzər yetirsək görərik ki, Azərbaycan iqtisadi inkişaf və infrastruktur layihələrinin icrası baxımından inkişaf etmiş ölkələri qabaqlayıb. Özü də bütün bunlar dövlətin öz hesabına reallaşıb, yəni Azərbaycan kimdənsə kömək istəməyib, borc almayıb.

Bu gün Azərbaycanın valyuta ehtiyatları xarici borcdan 5-6 dəfə çoxdur. 2020-ci ildə beynəlxalq konyunkturun əhəmiyyətli dərəcədə pisləşməsinə baxmayaraq, Azərbaycanın strateji valyuta ehtiyatları artıb. Nəticədə ölkənin valyuta ehtiyatları 51,2 milyard ABŞ dollarına çatıb.

Bu həm də o deməkdir ki, Azərbaycan dövləti bütün xarici borcu ödəyə bilər. Prezidentin söylədiyi kimi, bu nailiyyətləri Azərbaycan əraziləri işğal olunmuş, çox çətin geosiyasi vəziyyətdə olan ölkə kimi qazanıb.

### Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzi

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində fəal iştirak edir və Avrasiyanın əsas və etibarlı logistika mərkəzlərindən birinə çevrilib.

İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısında İlham Əliyev bu məsələyə toxunaraq qeyd etmişdir ki, Azərbaycan öz tərəfdaşları ilə birgə ölkəmizin nəqliyyat infrastrukturunu Lapis Lazuli nəqliyyat dəhlizi ilə birləşdirb və nəqliyyat sahəsində çoxtərəfli əməkdaşlıq üçün geniş imkanlar yaradıb.

Bununla yanaşı, Azərbaycan Avrasiyada enerji təhlükəsizliyini təmin edən əsas ölkədir. 2020-ci il dekabrın 31-də istismara verilən və yeddi ölkəni birləşdirən 3500 kilometr uzunluğunda olan "Cənub qaz dəhlizi" dünyanın ən böyük enerji infrastrukturu layihələrindən biridir.

Ermənistan üzərində şanlı Qələbədən sonra isə Azərbaycan bölgədə sülh və sabitliyi təmin etmək üçün bir çox ölkələri birləşdirən nəqliyyat layihələrini müzakirə etməyə başlayıb. Azərbaycan, Türkiyə və İran bölgədə nəqliyyat layihələrinin icrası ilə bağlı vahid mövqe sərgiləyir. Əgər Ermənistan 10 noyabr Bəyannaməsinin şərtlərinə əməl edərsə, bu ölkə də regionda gedən prosesdən faydalana bilər. Əks təqdirdə yenə də bütün layihələrdən kənarda qalacaq.

Bu layihələrdən ən mühümü Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcək. Beləliklə, Azərbaycanın əsas hissəsi ilə ölkəmizin ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikasını və Türkiyəni birləşdirəcək yeni nəqliyyat dəhlizi yaranacaq. Bu layihə regionda nəqliyyat sektorunda yeni imkanlar açacaq. Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini Zəngəzur dəhlizindən faydalanmağa dəvət edib.

### Regionun inkişafında yeni dövr başlayıb

Martın 11-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) yeni prezidenti Odil Reno-Bassonu və bankın rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edən İlham Əliyev bir daha İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış vəziyyəti izah edib və Azərbaycanın qarşıdakı illərdə reallaşdıracağı layihələr barədə məlumat verib.

Xatırladaq ki, Azərbaycan AYİB ilə 30 ildə çox güclü tərəfdaşlıq əlaqələri qurub. Bank iqtisadiyyatın şaxələndirilməsində Azərbaycana dəstək verib. 3 milyard avrodan çox məbləğdə layihələrin maliyyələşdirilməsi bunu təsdiq edir.

Prezident vurğulayıb ki, hazırda əsas məqsəd işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Artıq böyük tikinti-quruculuq işlərinə start verilib. Hazırda Qarabağda beynəlxalq hava limanı, avtomagistrallar tikilir, dəmir yolu xətləri inşa edilir. Bu ilin sonuna kimi bütün Qarabağ ərazisi üçün enerji təchizatı 100 faiz tamamlanacaq. Digər əhəmiyyətli layihələr də gerçəkləşdiriləcək. Azərbaycan bu məsələlərdə də Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa güvənir.

Ardı 2-ci səh.

# Şəhid ailələrinə və qazilərə qayğı dövlətin prioritetidir

"Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək".

Bu fikirləri Prezident İlham Əliyev fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində çıxışı zamanı demişdi.

Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Ölkəmizdə şəhid ailələrinə, eləcə də Qarabağ qazilərinə diqqət, qayğı bütövlükdə sosial siyasətin prioritet istiqamətlərindən biridir. Dövlət müvafiq kateqoriyadan olan insanlar üçün əlindən gələni edir. Dövlət başçısının bu sahədəki siyasəti birmənalıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərini müharibə veteranlarının, əlillərin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir.

Dövlət rəhbəri canı bahasına Vətənin keşiyində duran, şəhidlik zirvəsinə ucalan hər bir şəhidin ailəsinə diqqət və qayğısını heç zaman əsirgəməyib. Şəhid ailə üzvlərinə dövlət tərəfindən müəyyənləşdirilmiş pensiya və müavinətlərin ödənilməsi vaxtlı-vaxtında təmin edilir. Həlak olmuş hərbi qulluqçuların ailələrinə 11000 manat birdəfəlik sığorta ödənişinin verilməsi, yas mərasiminin təşkili üçün həlak olmuş şəxsin valideynlərinə 3000 manat məbləğində maliyyə yardımının göstərilməsi, aylıq olaraq şəhid ailəsinə 500 manat Prezident təqaüdünün verilməsi, şəhid uşaqlarının təhsil haqqından azad olunması, şəhidlərin ailə üzvlərinin əmək pensiyasına 93,5 manat əlavə hesablanması, hər bir şəhid ailəsinin evlə təmin olunması kimi tədbirlərin həyata keçirilməsi dövlət qayğısının bariz nümunəsidir.

Ardı 2-ci səh.

# Zəngəzur dəhlizi Avrasiya nəqliyyat marşrutunun əhəmiyyətini daha da artıracaq

## Bu, Prezident İlham Əliyevin növbəti diplomatik qələbəsi olacaq

Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə ilə təkcə işğal olunmuş torpaqları azad etmədi, həm də regionda və dünyada yeni reallıq yaratdı. Qələbəmizin rəsmi təsdiqini özündə ehtiva edən 10 noyabr sazişi bu reallığa möhürünü vurdu. Bununla ölkəmiz qondarma "Dağlıq Qarabağ problemi"ndən birdəfəlik qurtuldu və indi Azərbaycan daha çevik və sərbəst siyasət aparmaq imkanına malikdir.

Münaqişə həll olunmamışdan əvvəl Azərbaycana "yol göstərmək" istəyən ölkələr bu gün bizimlə əməkdaşlığa can atırlar. Hətta həmişə Ermənistanın yanında olan dövlətlər yanlış siyasi mövqelərindən geri çəkilirlər, baxmayaraq ki Prezident İlham Əliyev hələ müharibənin gedişi zamanı belə mövqe sərgiləyən ölkələrə xəbərdarlıq edərək onların apardığı siyasətin gələcək iqtisadi əməkdaşlıqda nəzərə alınacağını bildirmişdi. Təsadüfi deyil ki, dövlət başçısının vaxtında etdiyi bu xəbərdarlıqdan bir çox ölkələr nəticə çıxarıb öz siyasi mövqelərində düzəliş etdilər.

Digər tərəfdən, Vətən müharibəsində qazandığımız tarixi qələbə ölkəmiz üçün yeni inkişaf perspektivləri açmaqla yanaşı, həm də onun dünyadakı siyasi çəkisini daha da artırdı. Məsələn, nəqliyyat sahəsində əldə edəcəyimiz yeni Zəngəzur dəhlizi ölkəmizə böyük imkanlar qazandıracaq. Belə ki, Çinin dünyaya açılma siyasətinin beynəlxalq aləmin diqqət mərkəzində olması faktdır. Avropa İttifaqı da Çinlə iqtisadi əlaqələrə böyük əhəmiyyət verir. Çünki Çin hazırda dünyanın nəhəng ixracatçılarındandır və dünya bazarına ildə təxminən 2 trilyon 400 milyard dollar dəyərində məhsul çıxarır. Bu səbəbdən də yeni nəqliyyat marşrutlarının yaradılması barədə təşəbbüslə çıxış edir. Xatırladaq ki, Çinin Avropa ilə ticarət dövriyyəsinin dəyəri 1 trilyon dollara yaxındır. Buna görə də Avropa ilə mal mübadiləsində yeni yollardan biri olan "Şərq-Qərb nəqliyyat dəhlizi"nə böyük əhəmiyyət verilir.

Məlumdur ki, hazırda dünya ölkələri müxtəlif marşrutlar əldə etmək üçün qızğın iqtisadi və siyasi mübarizəyə başlayıblar. Çünki yüklər haradan keçərsə, o ölkə tranzit ərazi kimi milyardlarla dollar gəlir əldə edəcək. Prezident İlham Əliyev bu sahədə də vaxtında lazımi tədbirlər görüb. İndi bizim nəhəng Xəzər Dəniz Donanmamız var. Donanmanın tərkibində Xəzərin şərq sahilindən qərb sahilinə yük daşımaq üçün bərə gəmilərimiz kifayət qədərdir.

Ardı 4-cü səh.

# Xoşbəxt məqamın astanasında

## 30 ilə yaxındır ki, doğma yurdlarından ayrı düşən qarabağlılar səbirsizliklə böyük qayıdışı gözləyirlər

"Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz. Mən onlara bizim bu qəhrəman əsgər və zabitlərimizin hüzurunda müraciət edərək deyirəm: Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq. Bax, burada oturanlar, bizim minlərlə əsgər və zabitlərimiz sizi öz doğma dədə-baba torpaqlarınıza qaytarırlar. Biz Azərbaycan dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq".

Prezident İlham Əliyevin ötən il noyabr ayının 11-də 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı qətiyyətlə bəyan etdiyi kimi, 30 ildir doğma torpaqlarından zorla qovulan yüzminlərlə həmvətənimizin canı qaçqın, köçkün ifadəsindən qurtuldu...

İllərdir vətəndə qəribçiliyin ağır yükünü çəkən, yurd özləmini xatirələrlə, röyalarla ovutmağa çalışan, doğulduğu torpağa qovuşmaq üçün Tanrıdan ömür payı istəyən, axan sulardan, uçan quşlardan, əsən rüzgarlardan doğma obasını soraqlayan bir elin acısını nə sözlə ifadə etmək, nə yazmaq, nə də təsvir etmək mümkün deyil. Yalnız taleyinə məcburi köçkünlük kimi qismətsiz bəxt yazılanlar bilər Vətəndə vətənsiz olmağın ağrı-acısını...

Ardı 4-cü səh.

# Ermənilərin 91 faizi artıq Qarabağı düşünmür

Ermənistandakı siyasi böhran pik həddə çatıb. Hakimiyyət qolları arasındakı gərginlik davam edir. O cümlədən baş nazir Nikol Paşinyanla müxalifət arasındakı çəkişmənin həlli perspektivdə görünmür. Bununla belə vəziyyətin təhlili göstərir ki, müxalifətin və ordunun bütün cəhdlərinə rəğmən Nikol Paşinyan rəqibləri üzərində üstünlük qazanmaqdadır.

Xatırladaq ki, Ermənistan prezidenti Armen Sarkisyan Nikol Paşinyanın silahlı qüvvələrin baş qərargah rəisi vəzifəsinə Artak Davtyanın təyin olunması ilə bağlı təqdimatını ikinci dəfə təsdiq etməyib. Lakin ölkə qanunvericiliyinə görə A.Davtyan bu vəzifəyə avtomatik təyin olunur. Belə ki, Konstitusiyaya əsasən, prezident baş nazirin təqdimatına etirazını üç iş günü ərzində hökumət başçısına qaytara bilər. Hökumət başçısı bu etirazları qəbul etmirsə, prezident müvafiq fərman imzalamalı və ya Konstitusiya Məhkəməsinə müraciət etməlidir. Prezident bu tələbləri yerinə yetirmirsə, baş nazirin təqdimatı avtomatik olaraq qüvvəyə minir.

Ermənistan prezidentinin saytında yer alan açıqlamada isə deyilir ki, Armen Sarkisyan fərman imzalamayacaq və Konstitusiya Məhkəməsinə müraciət etməyəcək. Bu da o deməkdir ki, A.Davtyanın artıq silahlı qüvvələrin baş qərargah rəisi vəzifəsini icra etmək hüququ var. Bununla da Paşinyan özünə yaxın olan şəxsi silahlı qüvvələrin baş qərargah rəisi vəzifəsinə gətirdi, ordunun onun üçün yarada biləcəyi təhlükəni aradan qaldırdı.

Ardı 6-cı səh.



## Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə aşağıdakı dəyişikliklər edilsin:

1. Şərur rayonunun inzibati ərazi bölgüsünə daxil olan Dəmirçi kənd inzibati ərazi dairəsi tərkibindəki Dəmirçi kəndi Sədərək rayonunun inzibati ərazi bölgüsünə daxil edilsin.
2. Dəmirçi kənd inzibati ərazi dairəsi Şərur rayonunun tabeliyindən çıxarılaraq Sədərək rayonunun tabeliyinə verilsin.
3. Şərur rayonunun inzibati ərazisindən dövlət mülkiyyətində olan 4444 ha torpaq sahəsi bu Qanuna əlavə edilmiş xəritələrə uyğun olaraq Sədərək rayonunun inzibati ərazisinə birləşdirilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2021-ci il*

## "Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 275-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 275-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1479) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın 7.4.7-ci yarımbəndindən "Şərur rayonunun" sözləri çıxarılsın və həmin yarımbəndə "Kərimbəyli" sözündən sonra "(Şərur rayonu)" sözləri əlavə edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 275-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2021-ci il*

## "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 689; 2001, № 11, maddə 677; 2002, № 5, maddə 237; 2003, № 6, maddə 273, № 8, maddə 419; 2004, № 7, maddə 522, № 10, maddə 784, № 12, maddələr 982, 987; 2005, № 4, maddə 283, № 10, maddə 884; 2007, № 3, maddə 212,№ 11, maddə 1051; 2008, № 5, maddələr 346, 347, № 8, maddə 708, № 11, maddə 959; 2009, № 4, maddə 214, № 7, maddələr 503, 511, № 10, maddə 770, № 12, maddə 963; 2010, № 7, maddə 605, № 11, maddələr 942,943, 961; 2011, № 3, maddə 166, № 7, maddə 613; 2012, № 2, maddə 54, № 3, maddə 192, № 6, maddə 525, № 9, maddə 840, № 11, maddə 1059; 2013, № 3, maddə 233, № 6, maddə 597, № 11, maddələr 1262, 1263, № 12, maddə 1490; 2014, № 5, maddə 463, № 7, maddə 760, № 11, maddə 1375; 2015, № 7, maddə 820, № 12, maddə 1440; 2016, № 2 (II kitab), maddə 222; 2019, № 1, maddə 2; 2020, № 10, maddə 1243; Azərbaycan Respublikasının 2020-ci il 15 dekabr tarixli 213-VIQD nömrəli Qanunu) əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "Sədərək rayonu" bölməsinə aşağıdakı məzmunda 63.4-cü sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 63.4 | Dəmirçi bələdiyyəsi | Dəmirçi kəndi |

2. "Şərur rayonu" bölməsinin 65.13-cü sətri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2021-ci il*

# Milli Məclisin Gənclər və idman komitəsində həkimlərlə görüş keçirilib

Martın 13-də Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Vətən müharibəsində iştirak etmiş həkimlərlə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan vitse-spiker Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Vətən müharibəsində göstərdiyi şücaət nəticəsində torpaqlarımızın düşmən işğalından azad edilməsindən danışıb, bu tarixi Qələbənin tariximizin ən şanlı səhifələrindən biri olduğunu bildirib.

Döyüş meydanında qazanılmış Qələbənin dövlət başçısı tərəfindən diplomatik müstəvidə də uğurla davam etdirilməsinə toxunan Adil Əliyev nəticədə Ağdam, Kəlbəcər, Laçın və digər şəhər və rayonlarımızın bir güllə belə atılmadan geri alınmasını diplomatiyamızın çox böyük uğuru adlandırıb. Qeyd edib ki, Vətən müharibəsində "Biz birlikdə güclüyük!" şüarını rəhbər tutan Azərbaycan xalqının arxa cəbhədə, igidlərimizin isə ön cəbhədə şücaəti ölkəmizin gücünü bütün dünyaya bir daha göstərib.

2020-ci ildə həkimlərimizin pandemiya xəstəxanalarında, sonra isə müharibə zamanı fəaliyyətindən danışan vitse-spiker onların fədakarlığını yüksək qiymətləndirib.

Bildirib ki, həkimlərimizin gərgin əməyi nəticəsində bir çox yaralı hərbçimiz həyata qaytarılıb, bir sıra hərbçilərimizin müalicəsi isə davam etdirilir. Adil Əliyev göstərdikləri fədakarlığa və vətənpərvərliyə görə həkimlərə bir daha təşəkkürünü bildirib, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyib.

Görüşdə iştirak edən həkimlər torpaqlarımızın düşmən işğalından azad edilməsindən qürur duyduqlarını və yaralanmış hərbi qulluqçularımıza xidmət göstərməyin onların vətəndaşlıq borcu olduğunu diqqətə çatdırıblar.

Sonda Vətən müharibəsində xidmət etmiş həkimlərə Milli Məclisin Gənclər və idman komitəsinin fəxri fərmanları təqdim olunub.

# Qarabağ böyük investisiya məkanına çevrilir

## Beynəlxalq təşkilatlar, xarici sərmayəçilər burada reallaşacaq layihələrə maraq göstərirlər

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, bir müddət öncə İlham Əliyev işğaldan azad olunmuş torpaqları "yaşıl enerji" zonası elan edib. Azərbaycan əsasən su, günəş və külək kimi bərpaolunan enerji mənbələrindən istifadə etməyi planlaşdırır. Çox güman ki, bu layihələrin reallığa çevrilməsində AYİB-nin dəstəyi olacaq.

Prezident bununla bağlı bildirdi: "Bərpaolunan enerji mənbələri baxımından orada böyük potensial var. Başqa sözlə, bu, Azərbaycanın və regionun inkişafında yeni bir dövr və ya hətta yeni bir eradır. Demək olar ki, 30 il davam edən Dağlıq Qarabağ münaqişəsi öz həllini tapdıqdan sonra regional inkişaf, regional əməkdaşlıq, bağlılıq üçün yeni imkanlar var və Azərbaycan bunlara hazırdır".

AYİB-nin yeni prezidenti Odil Reno-Basso isə təşkilatın Azərbayanla enerji sahəsindəki əməkdaşlığını yüksək qiymətləndirib. O, AYİB-nin Azərbaycan hökuməti ilə külək və günəş enerjisi sahələrində əməkdaşlıq etdiklərini deyərək bu sahədə əməkdaşlığın əhəmiyyətindən danışıb.

Görüşdə nəqliyyat, bərpaolunan enerji, telekommunikasiya, bank sektoru və digər sahələrdə həyata keçirilən layihələrlə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Göründüyü kimi, həm İqtisadi Əməkdaşlıq Təşkilatının üzv ölkələri, həm də AYİB artıq Azərbaycanın yeni layihələri ilə yaxından maraqlanmağa başlayıblar.

Yeni Azərbaycan Partiyasının VII qurultayında çıxışı zaman İlham Əliyev bir daha vurğulamışdı ki, iqtisadi sahədə başlanan yeni dövr göz qabağındadır. Artıq Qarabağda böyük bərpa işlərinə başlanılıb. Özəl sahibkarlığın inkişafı, o cümlədən azad edilmiş torpaqlarda bütün işlərin planlı şəkildə aparılması, investisiyalar üçün imtiyazların müəyyən edilməsi təlimatı da verilib. Tezliklə xarici investorlar azad edilmiş torpaqlara böyük həvəslə gəlib yeni-yeni layihələrə sərmayə yatıracaqlar. Bu da əlbəttə ki, Azərbaycan iqtisadiyyatının yüksəlişini və saxələnməsini şərtləndirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhid ailələrinə və qazilərə qayğı dövlətin prioritetidir

*Əvvəli 1-ci səh.*

Hazırda şəhid ailələrinin sosial təminatının gücləndirilməsi ilə bağlı 20 proqram dövlət tərəfindən dəstəklənir və maliyyələşdirilir. Eləcə də Qarabağ qazilərinin sosial təminatının gücləndirilməsi ilə bağlı 12 proqram həyata keçirilir.

Yanvarın 25-də Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, 2021-2025-ci illərdə həmin kateqoriyadan olan şəxslərin (ailələrin) mərhələli şəkildə mənzillə təminatı həyata keçiriləcək. Sənəd bir daha onu təsdiq edir ki, bu məsələ ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir.

Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il bu kateqoriyadan olan insanlara 1572 mənzil verilib. Bu il isə 3 minə yaxın mənzilin verilməsi planlaşdırılır. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş şəxslərin Bakı, Sumqayıt və Abşeron rayonunda yaşayan ailələri bu ilin sonuna qədər mənzillərlə təmin olunacaqlar. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi isə davam etdirilir.

Qarabağ qazilərinin avtomobillə təmin edilməsi prosesi də mərhələli şəkildə həyata keçirilir. Hazırkı dövrədək müharibə əlillərinə 7200-ə yaxın minik avtomobili verilib.

Fiziki sağlamlığını itirən müharibə əlilləri üçün də hər cür lazımi şərait yaradılıb. Ölkənin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar müxtəlif bədən xəsarəti alan əlillərə dövlət lazım olan diqqəti göstərməkdədir. Dövlətin bu təbəqəyə göstərdiyi qayğı ilbəil artmaqdadır.

Əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara əlillik dərəcəsinə uyğun birdəfəlik 8800, 6600 və 4400 manat sığorta ödənişi həyata keçirilir, əlillik dərəcəsinə uyğun 250, 230 və 210 manat məbləğində, I dərəcə əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edənlərə 50 manat məbləğində Prezident təqaüdü ödənilir, əlilliyi müəyyən edilmiş şəxslərin pensiya hüququ olmadıqda II dərəcə əlilliyi olana 130, III dərəcə əlilliyi olana 110 manat məbləğində müavinət ayrılır. Eyni zamanda əlilliyi müəyyən edilmiş şəxslər tibb müəssisələrinin göndərişi ilə ölkə hüdudları daxilində pulsuz sanatoriya-kurort müalicəsi ilə təmin edilir, əlil arabası daxil olmaqla reabilitasiya vasitələri, protez-ortopedik vasitələr, yüksək texnologiyalı protezlər, bərpa mərkəzlərində mütəmadi reabilitasiya kursu keçirlər. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər.









Fevralın 25-də Prezident İlham Əliyevin əsaslı təmirdən sonra açılışında iştirak etdiyi Bakının Xəzər rayonundakı Şağan Reabilitasiya Pansionatı da bu qəbildən olan müalicə mərkəzlərindəndir. Yenidən qurulan 250 çarpayılıq pansionatda ildə 5 min nəfərədək qazi müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcək. Bu tibb müəssisəsində ürək, qan-damar, oynaq-hərəkət, əsəb sistemi, endokrin xəstəliklərdən əziyyət çəkənlərə xidmət göstəriləcək. Əsas xidmətlər isə funksional diaqnostika, fizioterapiya müalicəsi, tibbi vannalar, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji reabilitasiyadır. Pansionatda müalicə alanların reabilitasiyasında müasir metodika ən qabaqcıl texnologiyanın tətbiqi ilə paralel təşkil olunacaq.

Prezident İlham Əliyevin tapşırığı ilə ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanaraq orqanlarını itirmiş vətəndaşların yüksək texnologiyalı, elektron protezlərlə təminatına başlanılıb. Müharibədən sonrakı dövrdə 210 qaziyə 1220 reabilitasiya vasitəsi verilib, 15 hərbçi yüksək texnologiyalı protezlə təmin edilib. Vətən müharibəsində yaralanmış şəxslərin 90 faizi ilə evlərində görüş keçirilib. Amputasiyası olan 301 nəfərdən 109-nun protez ehtiyacları müəyyən edilib. Cari il ərzində onların hamısının protezlə təmin olunması planlaşdırılır.

Vətən müharibəsində yaralanmış qazilərimizin mühərrikli təkərli oturacaqlarla təminatına da start verilib. İlk mərhələdə ölkəmizin ərazi bütövlüyü ilə əlaqədar əlilliyi olan şəxslərə, sonrakı mərhələdə digər əlilliyi olan şəxslərə mühərrikli təkərli oturacaqlar təqdim olunacaq. Yeni təkərli oturacaqlar əlilliyi olan insanlara kənar şəxsin köməyi olmadan sərbəst hərəkət etmək imkanı yaradır.

Heydər Əliyev Fondu da Vətən müharibəsi zamanı torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərin ailələrini və qazilərimizi daim diqqətdə saxlayır, onların qayğısına qalır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi fond bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin həlli üçün mütəmadi olaraq tədbirlər həyata keçirir. Fondun dəstəyi ilə Vətən müharibəsində ağır yaralanan bir neçə qazimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib.

Dövlət dəstəyi ilə yanaşı, yeni formalaşan "YAŞAT" Fondu da şəhid ailələrinə, eləcə də Qarabağ qazilərinə xüsusi dəstək nümayiş etdirməkdədir. Fondun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün olan layihəsi də uğurla icra edilir. Şəhidlərimizin yeni doğulan övladlarının zəruri xərcləri fond tərəfindən qarşılanır. Bu məqsədlə 1 000 manat məbləğində pul anaya təqdim olunur və dünyaya gələn körpənin adına 5 000 manatlıq hesab açılır. Həmin hesaba vəsait fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılır. Şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Həm dövlət, həm Heydər Əliyev Fondu, həm də "YAŞAT" Fondu tərəfindən şəhid ailələrinin və Qarabağ qazilərinin, eləcə də onların ailə üzvlərinin sosial təminatının gücləndirilməsi ilə bağlı mühüm işlər uğurla davam etdirilir, bu sahədə sistemli və kompleks tədbirlər həyata keçirilir. Bütün bunlar bir daha təsdiq edir ki, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən əlilliyi olanların, şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının, mina qurbanlarının sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin sosial siyasətinin əsas tərkib hissəsidir. Bu gün uğurla aparılan sosial siyasət kursu və görülən işlər təsdiqləyir ki, dövlət hər zaman bu kateqoriyadan olan insanların yanındadır. Bir sözlə, əhalisinin sosial müdafiəsinin təmin edilməsi müstəqil Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Media və QHT rəhbərləri, blogerlər və ictimai fəallar Ağdam rayonuna səfər ediblər









Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən martın 13-də media və QHT rəhbərləri, blogerlər və ictimai fəallar işğaldan azad edilmiş Ağdam rayonuna səfər ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, onları Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müşayiət edib.

Əvvəlcə Ağdamın Baş Qərvənd kəndinin ərazisində yerləşən Bərdə-Ağdam dəmir yolu xəttinin ətrafının minalardan təmizlənməsi əməliyyatları ilə tanışlıq olub.

Minatəmizləmə əməliyyatları ilə tanışlıq zamanı Minatəmizləmə Agentliyinin nümayəndəsi İdris İsmayılov məlumat verib ki, bir aydan çoxdur bu ərazidə Ermənistan ordusunun basdırdığı minaların təmizlənməsi əməliyyatları aparılır. Bugünədək 37 min 400 kvadratmetr ərazi yoxlanılıb və tank əleyhinə 35 mina, piyada əleyhinə 41 mina, 2 ədəd partlamamış sursat aşkarlanaraq zərərsizləşdirilib. Hazırda əməliyyat-axtarış tədbirləri davam edir.

Səfər iştirakçıları ərazidən tapılan minaların zərərsizləşdirilməsi prosesini izləyiblər.

Yolboyu əvvəllər Ermənistan ordusunun hərbi istehkamlarının olduğu ərazilərlə tanış olan səfər iştirakçılarına həmin qurğuların mürəkkəbliyi barədə məlumat verilib. Bildirilib ki, Ağdam rayonu üçtərəfli bəyanata uyğun olaraq, noyabrın 20-də Ermənistan ordusu tərəfindən tam boşaldılıb. Rayonun ərazisində keçmiş təmas xətti boyunca Ermənistan ordusu tərəfindən yaradılmış müdafiə istehkamları mürəkkəbliyi ilə seçilib. Bu səddin keçilməsi ciddi texnika və insan itkisi olmadan mümkün deyildi. Ancaq Azərbaycan Prezidentinin diplomatik məharəti, prinsipiallığı və dəmir iradəsi ilə Ermənistan kapitulyasiyaya və əraziləri boşaltmağa məcbur oldu, bu yerlər işğaldan itkisiz azad edildi.

Səfər iştirakçıları Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən, işğal zamanı erməni vandallarının dağıtdıqları Uzundərə II Şəhidlər xiyabanını da ziyarət ediblər.

Sonra media orqanları və QHT-lərin rəhbərləri, blogerlər və ictimai fəallar işğaldan azad edilmiş Ağdam şəhərinə gəlib, burada Ermənistanın törətdiyi müharibə cinayətlərinin nəticələri ilə tanış olublar.

Əvvəlcə Ağdam xanlarının abidələr kompleksi və İmarət qəbiristanlığı, "Qarabağ" futbol klubunun "İmarət" stadionu ziyarət edilib.

Ağdam şəhərindəki İmarət qəbiristanlığına gələn səfər iştirakçılarına məlumat verilib ki, burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra Pənahəli xanın buradakı sarayı və qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar.





İşğal edilən ərazilərdəki məscidlər, məzarlıqlar kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb.

Bildirilib ki, məscidlərin, tarix memarlıq abidələrinin dağıdılması, mal-qara saxlanılaraq təhqir edilməsi erməni vandalizminin bariz nümunəsidir və bu fakt təkcə Azərbaycanın deyil, ümumilikdə dünyanın mədəni irsinə barbar münasibət kimi beynəlxalq ictimaiyyət tərəfindən kəskin qınanmalıdır.

Diqqətə çatdırılıb ki, Ağdamda məhv edilən idman infrastrukturundan biri də bu ərazidə yerləşən rayonun "Qarabağ" futbol klubunun meydançası olan "İmarət" stadionudur. Vaxtilə stadionda restoran və futbolçuların bazası da vardı. Yaxınlıqda isə Xurşidbanu Natəvanın heykəli var idi. İndi onlardan əsər-əlamət belə qalmayıb. Bir çox el şənlikləri, festivallar, eləcə də mədəniyyət və incəsənət xadimlərinin konsertləri məhz "İmarət" stadionunda təşkil edilərdi.

Səfər iştirakçıları Ağdam rayonunda I Şəhidlər xiyabanını ziyarət ediblər.

Bildirilib ki, burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib.

Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbiri də buradadır. Səfər iştirakçıları Milli Qəhrəmanın da məzarını ziyarət edib, ruhuna dualar oxuyublar.

Ermənilər xislətlərinə uyğun olaraq, Şəhidlər xiyabanındakı qəbirlərin əksəriyyətini qarət məqsədilə qazaraq dağıdıblar.

Daha sonra Ağdam rayonundakı Cümə məscidini ziyarət edən səfər iştirakçılarına məscidin tarixi və erməni barbarlığı barədə məlumat verilib. Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabağı tərəfindən tikilib. Bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir.

Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Ağdam məscidi də ermənilər tərəfindən dağıntılara məruz qalıb, minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

Cümə məscidi ölkə əhəmiyyətli abidələr siyahısındadır.

Jurnalistlər, QHT rəhbərləri və ictimai fəallar səfər çərçivəsində, həmçinin Ağdam şəhərindəki avtovağzalın partladılmış binası, Ağdam pasajı, məşhur "Çay evi"nin yeri, mərkəzi meydan, Dram Teatrının binası və Çörək muzeyi ilə tanış olublar.

Sonra Şahbulaq qalasında olan səfər iştirakçılarına qalanın tarixi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ ərazisindəki ən məşhur abidələrdən biri Ağdam rayonunun ərazisindəki XVIII əsrə aid Şahbulaq qalasıdır. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən bu qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Saray kompleksi yerli inşaat materialları əhəngdən və dağ daşlarından inşa edilib. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Kompleksin ətrafı mühafizə divarları, nəzarətçi qüllələri ilə əhatələnib. Divarların hündürlüyü 7 metr, qüllələrin hündürlüyü 8,5 metrdir. Kompleksin yeganə girişi Şərq tərəfdəndir. Şahbulaq saray kompleksinin şimal-qərbində, bulağın yaxınlığında məscid də inşa edilib. Qəsr adını gur sulu bulağın adından alıb.

Pənahəli xan Şuşa qalasını inşa edənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olub. Şahbulaq tikililəri Qarabağ xanlığının, xüsusilə də onun paytaxtı olmuş Şuşa şəhərinin memarlığına təsir göstərib.

Hazırda Şahbulaq qəsr kompleksindən təpə üzərində ucalan qala və məscid binası qalıb. Düşmən 1993-cü ildə Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi, Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, lakin buna nail olmayıb. Yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər.










# Zəngəzur dəhlizi Avrasiya nəqliyyat marşrutunun əhəmiyyətini daha da artıracaq

Əvvəli 1-ci səh.

İkincisi, Ələt Beynəlxalq Ticarət Limanında böyük gəmilərin yan alaraq yükünü doldurub-boşaltması üçün hər cür şərait yaradılıb. Üçüncüsü isə, bu yüklərin Avropaya daşınması üçün Bakı-Tbilisi-Qars dəmir yolu çəkilib. Bu yolun da çəkilməsinin təşəbbüsçüsü Prezident İlham Əliyevdir. Üstəlik maliyyələşdirməsini Azərbaycan dövləti həyata keçirib.

Ölkələr arasında gedən rəqabətdə siyasi amillər deyil, iqtisadi məsələlər əsas rol oynayacaq. Bu səbəbdən ölkəmizin həmin rəqabətdən üstün çıxacağına şübhə yoxdur. Çünki Çinlə Türkiyə arasında yükdaşımaların müddəti bir aydan 12 günə enib. Daşınmanın müddətinin belə azalmasında Azərbaycanın vaxtında icra etdiyi nəhəng infrastruktur layihələr mühüm rol oynayır.

Bu baxımdan noyabrın 10-da imzalanmış məlum sənədə Prezident İlham Əliyevin tələbi ilə ilk baxışda Dağlıq Qarabağ münaqişəsinə aid olmayan, lakin ölkəmiz və region üçün çox vacib 9-cu maddənin salınması mühüm diplomatik qələbə sayılmalıdır. Həmin maddə Naxçıvanla birbaşa əlaqənin bərpasına imkan verir ki, bu da ilk növbədə muxtar respublikanın nəqliyyat blokadasından çıxması deməkdir.

Azərbaycandan Naxçıvana dəmir yolu əlaqəsinin bərpası həm də Şərq-Qərb, Şimal-Cənub dəhlizləri ilə bağlı yeni şərait yaradır. Prezident İlham Əliyevin bu siyasi gedişi gələcəyə hesablanmış nəhəng geosiyasi və iqtisadi layihə kimi mühüm əhəmiyyət daşıyır. Çünki marşrutun fəaliyyətə başlaması Azərbaycanın mövcud nəqliyyat ötürücü imkanlarını daha da artıracaq. Bu, ölkəmizə geniş iqtisadi imkanlarla yanaşı, böyük siyasi dividendlər də gətirəcək. Əvvəla ona görə ki, Azərbaycan-Naxçıvan marşrutu mövcud Bakı-Tbilisi-Qars dəmir yolu marşrutundan 344 kilometr qısadır və bu həm yük göndərən, həm də yük qəbul edən tərəflər üçün çox sərfəlidir. Dövlətlərarası ticarətdə bu faktora xüsusi önəm verirlər, çünki məsafə qısaldıqca daşınma xərcləri ucuzlaşır. Digər mühüm əhəmiyyət daşıyan fakt isə odur ki, alternativi çox olan hər bir marşrut daha etibarlı sayılır. Məsələn, hər hansı bir səbəbdən - istər siyasi, istərsə də təbii, yaxud texnogen qəzalar üzündən Bakı-Tbilisi-Qars marşrutu fəaliyyətini dayandırarsa, yüklərin Çindən Avropaya daşınması üçün Azərbaycan-Naxçıvan-Türkiyə marşrutundan istifadə etmək mümkün olacaq. Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlu "Anadolu" agentliyinə müsahibəsində deyib ki, İğdır-Naxçıvan-Bakı dəmir yolu layihəsi artıq hazırdır.

Prezident İlham Əliyev martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayında Ermənistanın bu marşruta süni əngəllər yaratmaq istəyinə qarşı xəbərdarlıq edərək demişdir: "Azərbaycan-Ermənistan-Rusiya baş nazirlərinin müavinləri artıq neçə dəfə görüşüblər. Nə barədə danışırlar? Əməkdaşlıq barədə. Biz əməkdaşlığın əleyhinəyikmi? Yox! Ermənistan əməkdaşlıqdan boyun qaçırır. İndi Ermənistan Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək. Məcbur edəcəyik onları, məcbur edəcəyik. Necə ki, qovmuşuq torpaqlarımızdan, bütün istədiyimizə nail olacağıq".

Məlumdur ki, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizi kimi regional bağlantıda mühüm mövqeyə malikdir. Ölkəmiz artıq Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Dünyanın bir çox ölkələri bu reallığı qəbul edib Azərbaycanla nəqliyyat sahəsində əməkdaşlığa üstünlük verirlər. Qeyd etdiyimiz kimi, vaxtilə bizə siyasi əngəl törədən ölkələr indi iqtisadi əməkdaşlığa can atırlar.

Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının növbəti Zirvə toplantısında Zəngəzur dəhlizinin yeni vəziyyət yaratdığını bildirərək demişdir: "Biz indi gələcək haqqında düşünürük. Biz bölgədə sülh və sabitliyi təmin etmək üçün bir çox ölkələri birləşdirən nəqliyyat layihələrini müzakirə etməyə başlamışıq. Azərbyacan, Türkiyə və İran bölgədə nəqliyyat layihələrinin icrası ilə bağlı vahid mövqe sərgiləyir. Ermənistan da özünü normal apararsa, bu prosesdən faydalana bilər. Bu xüsusda qeyd etmək istərdim ki, Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcək və Azərbaycanın əsas hissəsi ilə ölkəmizin ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikasını və Türkiyəni birləşdirəcək yeni bağlantı dəhlizi regionda nəqliyyat sektorunda yeni imkanlar yaradacaq. Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini Zəngəzur dəhlizindən faydalanmağa dəvət edirik".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# Xoşbəxt məqamın astanasında

## 30 ilə yaxındır ki, doğma yurdlarından ayrı düşən qarabağlılar səbirsizliklə böyük qayıdışı gözləyirlər

Əvvəli 1-ci səh.

### Hər kəs el-obasına qovuşmağa tələsir...

Asan deyildi, düz 30 il idi ki qəlblərində Qarabağ ağırlıqda dağ daşıyırdılar, amma bir gün mütləq o doğma yerlərə qayıdacaqlarına, isti od-ocaqlarına qovuşacaqlarına əmin idilər. Bütün şuşalıların, laçınlıların, kəlbəcərlilərin, ağdamlıların, zəngilanlıların və digər işğal edilən torpaqlarımızdan məcburi köçkün düşən soydaşlarımızın qəlbində olan doğma yurda qayıdış ümidini öləziməyə qoymayan qüvvə isə dövlət başçısı Prezident İlham Əliyevə olan böyük inamdan, güvəndən doğurdu. İlham Əliyev 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs "Qurani-kərim"ə əl basaraq and içmişdi ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq. Və 2020-ci il dekabrın 10-da müzəffər sərkərdəmiz Zəfər paradında böyük qürur hissi ilə bir daha vurğuladı ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.

Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, igid əsgərlərimizin qorxmazlığı, müqəddəs şəhidlərimizin canlarını Vətənə qurban vermələri hesabına qazanılan Qələbə bütün Azərbaycan xalqının sevincinə, qüruruna səbəb oldu, yurdundan didərgin salınan soydaşlarımızın ağrıacılarına, nisgilinə, yurd qubarına son qoydu, ümidlərinin zirvəsi olan Qarabağ arzuları çin oldu...

Ürəklər uçundu, yaşlı da, o yurdu ömrü boyu görməyən gənclər də, uşaqlar da - hər kəs elinə-obasına qovuşmağa, Vətənə tələsdi...

Mənfur ermənilər bu 30 il ərzində doğma Qarabağımızla bağlı xain planlar qurmuşdu. Zəbt etdiyi torpaqlarımızda əbədi qalmaq arzusuna düşərək ilk öncə tarixi yerlərimizin adını saxtalaşdırıb eybəcər adlar vermiş, işğal etdiyi bütün yurdlarımızı viran etmiş, daşı daş üstündə qoymamışdı. Vandallar təbiətimizə qənim kəsilmiş, çaylarımızı qurutmuş, meşələrimizi yandırmış, qiymətli ağaclarımızı kəsib məhv etmişdilər. Bu illər ərzində yeraltı-yerüstü bütün sərvətlərimizi talayaraq qəsb etmiş, maddi-mədəni abidələrimizə yiyə durmağa çalışmışdılar. Xalqımızın heysiyyəti ilə oynayaraq dini abidələrimizi təhqir etmiş, məscidlərimizdə donuz saxlamışdılar. Doğma torpaqlarımızda Azərbaycan xalqından heç bir nişanə qalmaması üçün ağlagəlməz vəhşiliklərə əl atmış, sözlə ifadəsi mümkün olmayan vandallıqlar törətmişdilər. Elə hesab etmişdilər ki, bu vəhşi hərəkətləri ilə Qarabağı xalqımızın qəlbindən söküb atacaq, ora qayıtmaq istəyini yox edəcəklər...

Amma unutmuşdular ki, heç bir qüvvə və zaman kəsiyi "Qarabağ Azərbaycandır" həqiqətini yox etməyə qabil deyil. Çünki bu torpaqdan doğulan, mayası ondan yoğrulan xalqımın qəlbindən Qarabağ sevdasını silmək mümkün deyil.

### Bu qürurlu qələbəyə görə İlham Əliyevə minnətdarıq

Qəhrəman oğullarımızın qarışqarış azad etdiyi viranə qalan yurdlarımızı gördükcə yaralı Vətənə "can" dedik, "səni dardan qurtardıq, indi abadlaşdırmağa, yenidən cənnət-məkana çevirməyə gələcəyik" söylədik.

Dağılan məscidlərimizdən, Şuşada Gövhər ağa məscidindən, Ağdam Cümə məscidindən ucalan azan səsini eşitdikcə ruhumuz şad olur, ümidlərimiz, arzularımız dirçəlir, gözümüzə işıq, qollarımıza qüvvət gəlir...

Xurşidbanu Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş büstlərinin Qarabağın büllur qəsrinə, "Şuşanın ilk sakinləri" kimi qayıdışı könlümüzü oxşayır...

Xalqımız bu qürurlu qələbəni, bu xoşbəxt günləri bizə yaşatdığına görə Ali Baş Komandan İlham Əliyevə hələ də minnətdarlıq məktubları ünvanlayır. Sevinc, qürur hisslərindən qanad açan o təşəkkür məktublarında məcburi köçkünlərin Vətən özləmi, yurda qayıdış istəklərinin təzahürü qırmızı bir xətt kimi keçir...

Yadellilərin torpaqlarımızdan qovulmasının, tezliklə doğma yurdlarına qovuşacaqlarının xoşbəxtliyini yaşayan bütün qarabağlılar İlham Əliyevə sonsuz minnətdarlıqlarını bildirir, müzəffər sərkərdənin abidəsinin Qarabağın ən yüksək zirvəsində ucaldılması arzusunu ifadə edirlər.

Dövlətimiz tərəfindən həmişə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. Bununla belə məcburi köçkünlər hər zaman bu yaşayış yerlərində özlərini qonaq, müvəqqəti sakin kimi hiss ediblər. Torpaqlarımızın işğaldan azad ediləcəyi günün, Qarabağa qayıdacaqları xoşbəxt zamanın həsrəti ilə yaşayıblar.

Artıq o xoşbəxt məqamın astanasındayıq. 30 ilə yaxındır ki, dədə-baba yurdlarından ayrı düşən, isti od-ocağından olan qarabağlılar səbirsizliklə böyük qayıdışı gözləyirlər. Həmvətənlərimiz doğma yurdlarına qayıtmaq, əzmlə işğaldan azad olunmuş torpaqlarımızda quruculuq işlərində fəal iştirak etmək istəyindədirlər. Soydaşlarımız yenidən o doğma torpaqlarda yaşayacaq, quracaq, abadlaşdıracaq, xoşbəxt həyat sürəcəklər. İllərdir ölkəmizin dörd bir yanına səpələnmiş, pərən-pərən düşmüş el oğullarımız artıq bayramlarını da, xoş günlərini də, acılarını da birlikdə yaşayacaq, birlikdə ağlayıb, birlikdə güləcəklər...

### Qarabağ cənnətə çevriləcək

Onlar tam əmindirlər ki, dəmir yumruğun zərbəsi ilə Qarabağı düşməndən azad edən Ali Baş Komandan İlham Əliyev tezliklə bu diyarı cənnətə çevirəcəkdir.

Dövlət başçısının da vurğuladığı kimi, xalqımızın birliyi sayəsində işğaldan azad edilən yerlərə yenidən həyat qayıdacaq: "Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir".

Prezident İlham Əliyev yurdundan didərgin salınmış soydaşlarımızın dağıdılmış mülkiyyətinin bərpa ediləcəyini də bildirmişdir: "Mən söz verirəm ki, onlar üçün tikiləcək evlər əvvəlki evlərdən daha yaxşı olacaq, daha keyfiyyətli olacaq, daha geniş olacaq. Biz bunu edəcəyik. Bizim üçün xalqımızın rifahı, təhlükəsizliyi birinci məsələdir".

### XXI əsrin "Qarabağnamə"sini İlham Əliyev yazdı

Ermənilər tərəfindən zorla dədə-baba yurdlarından qovulan həmvətənlərimiz tezliklə doğma yurdlarına köçəcəklər. İşğaldan azad olunmuş bütün şəhər və kəndlərimiz abadlaşdırılacaq, tarixi, mədəni, dini abidələrimiz bərpa olunacaq, o yerlərin əvvəlki şöhrəti də, şanı da özünə qayıdacaq.

Qarabağla bağlı illərlə xəyalını qurduğumuz bu arzuların çin olmasının, indi xoşbəxtliyini yaşadığımız bu günlərin şah memarı İlham Əliyevdir. Ali Baş Komandan xalqımıza qalibiyyət, qələbə sevinci bəxş etdi, yüz minlərlə məcburi köçkünün vətən həsrətinə birdəfəlik son qoydu...

Qətiyyəti, siyasi iradəsi, vətənpərvərliyi ilə XXI əsrin "Qarabağnamə"sini tarixə silinməz izlərlə həkk edən İlham Əliyevin həyata keçirdiyi bu müqəddəs missiya sayəsində Qarabağa yeni həyat bəxş edilir, insanlarının taleyinə xoşbəxt günlər yazılır...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qarşıdakı 10 ildə bir sıra peşələrə ehtiyac olmayacaq

Yüksək texnologiyaların tətbiqi qarşıdakı 10 ildə təxminən 57 ixtisasın sıradan çıxmasına səbəb olacaq. Bu, robotların və yüksək dəqiqliklə hazırlanan proqramların insanları sıxışdırıb aradan çıxarması kimi qiymətləndirilməlidir, ya yox? Bu suala kimin necə cavab verməsindən asılı olmayaraq, insanların yeni çağırışlara hazır olması, sürətlə yeni ixtisaslara yiyələnməsi zərurətə çevrilir. Belə olarsa, insanların yeni dövrə keçidi nisbətən asanlaşa bilər.

## Onları yeni texnologiya və robotlar əvəzləyəcək

Bəs, ilk növbədə hansı ixtisaslara ehtiyac olmayacaq?

Məlumdur ki, artıq xüsusi hazırlanmış soft-proqramlar heç bir çətinlik çəkmədən audit və mühasib hesablamalarının öhdəsindən asanlıqla gəlir. Odur ki, yaxın gələcəkdə bu sahədəki çoxsaylı mütəxəssisləri kompüter proqramları tam əvəz edə biləcək. 5-6 ildən sonra intellektual proqramlar həmçinin layihələndirmə işlərində də insanların yerini tutacaq. Bu cür proqramlar həmçinin bütün smeta layihələrini hesablaya biləcək. Eləcə də məlumatların kəskin çoxalması statistik hesablamaları çətinləşdirəcək və gələcəkdə statistika işçiləri ordusunu geniş məlumatlara malik azsaylı mütəxəssislər əvəzləyəcək.

Səsin tanınması və mətnə çevrilməsi proqramının tətbiq edilməsi sayəsində stenoqrafistlərə də ehtiyac qalmayacaq. Mətnlərin avtomatik yoxlanılması və səhvlərin düzəldilməsi proqramları inkişaf etdikcə korrektorlar da unudulan peşə sahibləri sırasında qərar tutacaqlar.

Müasir kompüter qrafikasının geniş tətbiqi istənilən mənzərələri, fonu və dekorasiyaları yaratmağa imkan verir ki, bu da kino istehsalında istənilən mürəkkəb pavilyonların, qəsrlərin qurulmasına olan ehtiyacı aradan götürür. Artıq 3d həcmli şəhərlərin belə, kompüterlərdə yaradılması mümkündür. Bunlar isə o deməkdir ki, film istehsalında bir çox peşələrə, o cümlədən kaskadyorlara tədricən ehtiyac olmayacaq.

İnternet resurslarında dünyanın ən məşhur universitetləri istənilən mürəkkəb mövzuda onlayn mühazirələr təklif edirlər. Belə çıxır ki, adi mühazirələri oxuyan müəllimlərə də ehtiyac qalmayacaq, yalnız unikal biliklərə malik lektorlara tələbat olacaq. Təhlükəli sınaqların keçirilməsində istifadə edilən robot texnikaları bu sahədə də insan əməyini qismən ləğv edəcək.

Bunlardan əlavə, xüsusi proqramlar hüquq məsləhətçilərinin əvəzinə istənilən məsləhətləri verə biləcək. Üstəlik, elektron imzanın geniş tətbiqi notariuslara da olan tələbatı heçə endirəcək. Məlum olduğu kimi, bu gün bütün bank əməliyyatçıları şəbəkə fəaliyyətinə keçir, pullar isə xəzinədarlar yox, bankomatlar tərəfindən verilir.

İnternet servisləri maklerləri sıxışdıracaq və müştərilər evlərindən çıxmadan istənilən daşınmaz əmlakı ala biləcəklər. Maraqlısı odur ki, sıravi analitiklər də intellektual sistem tərəfindən əvəzlənəcək, insan yalnız ən mürəkkəb orijinal analizlərin aparılmasında istifadə olunacaq.

Ən maraqlısı odur ki, jurnalistika sahəsində də sadə, xüsusi bacarıq tələb etməyən mətnlər müvafiq proqramlarla tərtib ediləcək. Tərcümə proqramları isə bu gün artıq sinxron tərcüməyə olan tələbatı ödəyə bilir. "Bloomberg" şirkəti xəbərləri hazırlayan bir qrup işçilərini süni intellektlə əvəz etmişdir. Mütəxəssislərin rəyinə görə, 20 ildən sonra süni intellekt KİV-lə bağlı çoxsaylı problemlərin 95 faizinin həllini tapacaq. Yalnız fərdi müəllif yazıları hazırlayan jurnalistlər iş yerlərini qoruya biləcəklər.

"Dövlət xidmətləri portalı", "Elektron xidmətləri" kimi servislərin inkişafı sənədlərlə işləyən dövlət qulluqçularının sayının azalmasına səbəb olacaq. İndi nəqliyyat infrastrukturu mürəkkəbləşdikcə, yüklərin axını artdıqca müştərilərin tələbləri sərtləşir və insanların bu sahədəki fəaliyyəti çətinləşir. Beləliklə, kütləvi surətdə avtomatlaşdırılmış sistemlər tətbiq ediləcək. İnsanlar isə bu sahədə ən yüksək səviyyədə nəzarəti həyata keçirmək üçün lazım olacaqlar. Nəticədə dispetçerlərin və logistik sahədə çalışanların sayı aşağı düşəcək.

Süni intellektin davamlı inkişafı səhiyyədə ağır xəstəliklərin həkim-mütəxəssislərdən bir neçə dəfə artıq yüksək dəqiqliklə təyin edilməsinə imkan yaradacaq. Klinika və hospitallarda ilkin diaqnostika yüksək texnologiyalar əsasında xüsusi proqramlarla, demək olar ki, qüsursuz aparılacaq. 15-20 ildən sonra bu sahədə də çoxsaylı mütəxəssislərə ehtiyac azalacaq.

Avtomatlaşdırma və müasir avadanlıqların tətbiqi artıq aqrar sektorda da insan əməyinin tətbiqini sürətlə azaldır. Bu proses dünyada sürətlə gedir və onun qarşısını almaq mümkün deyil. Yük qatarlarının maşinistləri də pilotsuz idarəetmə sistemləri ilə əvəz olunacaq. İnsan yalnız ən mürəkkəb vəziyyətlərdə idarəetməyə qarışacaq. Yol post-patrul xidmətinin işçiləri də nəqliyyat axınlarının avtomatik idarə edilməsi nəticəsində çıxdaş olan peşə sahiblərinin siyahısında yer alacaqlar. Təhlükəsizlik standartlarının dəyişməsi, ağıllı nəzarət sistemlərinin tətbiqi klassik keşikçilərə olan tələbatı da heçə endirəcək. Bütün mühafizə olunan obyektlərin məlumatları vahid məntəqəyə cəlb olunacaq, çevik hərəkət edə bilən mobil qruplar təhlükələrin qarşısını vaxtında və cəld alacaqlar.

Qarşıdakı 10-15 il ərzində qida və kimya sənayesindəki istehsal proseslərində robotlaşmanın tətbiq edilməsi təhlükəsizliyi, məhsuldarlığı və görülən işlərin keyfiyyətini artıracaq. Qazıntılar və enerji daşıyıcılarının nəqlinin mürəkkəbləşməsi gələcəkdə bu işlərin insanın yaşaması mümkün olmayan ərazilərdə aparılmasına gətirib çıxaracaq. Resursların tükənməsi və başqa səbəblər üzündən gələcəkdə robot texnikasının geniş tətbiqi qaçılmaz olacaq. Beləliklə, insanlar qazıntı proseslərinə qarışmayacaq, bu işi asan görə bilən qazmaçı-robotlar sülaləsi meydana gələcək.

Yüngül sənayedə yüksək texnologiyaların və 3d çapının tətbiqi ev şəraitində belə, paltar və ayaqqabı istehsal etməyə imkan verəcək. Dərzilər çox güman ki, yalnız bahalı və fərdi sifarişləri icra edəcəklər.

Yük daşıyanlara da ehtiyac qalmayacaq. Artıq Yaponiyada Kitakyüsyü təyyarə limanında 50 kiloqram yükü apara bilən robotlar peyda olub. "Five Elements Robotics" adlı Amerika kompaniyası isə "Budgee" adlı personal köməkçi hazırlayıb. O, sahibinin arxasınca müxtəlif yükləri daşıya bilir. İnşaat-tikinti sektorunda tətbiq edilən yeniliklər də əl əməyinin azaldılmasına və bir sıra peşələrin tarixə qovuşmasına səbəb olacaq. Tikintidə klassik fəhlə ixtisasları inşaatçı-operatorla əvəzlənəcək.

Beləliklə, bizi qarşıda gözləyən sonsuz yeniliklər hər birimizdən yeni dövrün tələblərinə uyğun mövqe tutmağı tələb edir. Bu proqramlar hazırda mövcud olsa da, mükəmməl olmadıqları üçün insanları tam əvəz edə bilmir, amma hələlik. Bu "hələlik"in isə uzun müddət davam etməyəcəyi şübhəsizdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Novruz yarmarkaları fəaliyyətə başlayıb

Novruz bayramı ilə əlaqədar olaraq martın 13-dən 19-dək Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən "Kənddən şəhərə" yarmarkaları təşkil olunub.

Yarmarkalar paytaxtın Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (metronun "Gənclik" stansiyasının çıxışı), Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B ("İnqilab" kinoteatrının yanı) və Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A ünvanlarında açılıb.

AZƏRTAC-ın müxbiri metronun "Gənclik" stansiyasının çıxışında təşkil edilən Novruz yarmarkasında olub, satıcı və alıcılarla söhbət edib.

Yarmarkanın girişində məhsulların qiymətlərini əks etdirən lövhə qoyulub. Bu qiymətlər piştaxtalarda da əks olunub. Burada koronavirus əleyhinə quraşdırılan dezinfeksiyaedici məhlullar da diqqətimizdən qaçmadı. Hər bir müştərinin hərarəti yoxlanılır, əlləri dezinfeksiya edilir və bundan sonra tibbi maska taxmaqla yarmarkaya girişinə icazə verilir.

Fermerlərə isə ödənişsiz dezinfeksiyaedici məhlullar paylanılıb, tibbi maskalarla təmin olunublar. Həmçinin gündə 2-3 dəfə fermerlərin hərarətləri təkrar yoxlanılır.

"Kənddən şəhərə" Novruz yarmarkalarında satışa çıxarılan məhsullar tamamilə yerli istehsaldır və müxtəlif regionlarda fəaliyyət göstərən, yarmarkada iştirak üçün əvvəlcədən qeydiyyatdan keçən fermerlər tərəfindən alıcılara təqdim edilir. Yarmarkada 30-dan artıq regiondan 100-dən çox fermer 60-a yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsulunun satışını həyata keçirir.

Belə fermerlərdən biri İsmayıllıdan gələn Şahmar Əliyevdir. O, fermerlər üçün yaradılan şəraitdən razılığını bildirərək deyib: "İlin ilk Novruz yarmarkasıdır, həm də ki hələ çoxlarının bu yarmarkalardan xəbəri yoxdur. Növbəti günlərdə müştərilərimiz daha çox olacaq. Qiymətlərimiz də münasibdir, müştəri razı qalır. Bir sözlə, alan razı, satan razı".

Qiymətlərə gəldikdə, yarmarkada şabalıd 4, qoz ləpəsi 8, fındıq ləpəsi 13, kartof 0.45, soğan 0.60, mandarin 2, portağal 1.70, alma 0.40, pomidor 1, xiyar 2.50, kənd çolpası 3.50, mal əti 9.50, quzu əti 12.50 manatdan başlayan qiymətlərə təklif olunur. Bu qiymətlər pərakəndə satış məntəqələri ilə müqayisədə məhsullardan asılı olaraq 20-30, bəzən də 40-50 faiz aşağıdır. Bu da alıcıların ürəyincədir. Söhbət etdiyimiz Bakı sakini Qasım Ələkbərov deyir ki, belə yarmarkalar hər il təşkil olunur. "Sağ olsun dövlətimiz, bu yarmarkaları təşkil etməklə, həm biz alıcılara münasib şərait yaradır ki, məhsulları ucuz qiymətə alaq, həm də fermerlərin özləri üçün yaxşıdır. Axı, bu yarmarkalarda məhsulu müştəriyə elə fermerin özü satır. Amma digər satış yerlərində belə deyil, ona görə də məhsulun qiyməti də yüksək olur".







Foto İlham BABAYEVİNDİR

Digər müştəri Nərgiz Məmmədova da qiymətlərdən razılıq edir. Deyir ki, başqa yerlərlə müqayisədə bu yarmarkalarda məhsullar daha ucuz olur. "Həm də bilirsən ki, aldığın əsl kənd məhsuludur, hər hansı qatqısı yoxdur. Qabaqdan Novruz bayramı gəlir, hər kəs bayram hazırlığı görür. Mən də gəlmişəm ki, lazım olan çərəzlərdən, meyvələrdən alım", - deyə o vurğulayıb.

Yarmarkada qiymətləri fermerlər özləri təyin edirlər və bu şərait onlara ödənişsiz yaradılıb. Bu barədə danışan "Aqrar Tədarük və Təchizat" ASC-nin nümayəndəsi Mayis Musayev deyib ki, fermerlərə məhsulların münasib qiymətə satılması tövsiyə edilib.

Onun sözlərinə görə, Bakı və Abşeron ərazisində üç fərqli ünvanda gündəlik keçiriləcək yarmarkanın təşkilində əsas məqsəd bayram günlərində vətəndaşların kənd məhsullarına artan tələbatlarını yerli və sağlam məhsullarla qarşılamaq, yerli fermerlər üçün alternativ satış kanalı təşkil etməkdir. Vətəndaşlar Novruz yarmarkalarından kənd təsərrüfatı məhsullarını sərfəli qiymətə elə fermerlərin özündən alacaqlar.

"Novruz yarmarkası karantin rejiminin tələblərinə uyğun təşkil olunub. Fermerlər əvvəlcədən tibbi müayinədən keçirilib, ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla təmin olunublar. Həmçinin yarmarkanın keçiriləcəyi müddətdə təşkilatçı qurum tərəfindən yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya işləri aparılacaq və ziyarətçilərin sosial məsafəni qorumasına ciddi nəzarət olunacaq", - deyə Mayis Musayev bildirib.

"Aqrar Tədarük və Təchizat" ASC-nin nümayəndəsi həmçinin qeyd edib ki, gələcəkdə yarmarkaların sayının artırılması istiqamətində də müvafiq iş aparılır. Yarmarkanın sayının az olması isə pandemiyanın yaratdığı çətinliklərlə bağlıdır.

Qışda təşkil edilən yarmarkalarda fermerlərin sayının az olmasına gəldikdə, Mayis Musayev bunu məhsul yığımı mövsümü olmaması ilə əlaqələndirib. "Ümumiyyətlə, hər il yaz-yay-payız aylarında yarmarkalarda iştirak edən fermerlərin sayı çox olur, qış aylarında isə müəyyən azalma qeydə alınır ki, bu da məhsul yığımı mövsümü ilə əlaqədardır".



## Nizami Gəncəvi ili 880

*Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat!*



# Nizami poeziyasında Yer haqqında elmlər

**Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilib. Azərbaycanın klassik ədəbi-mədəni irsinə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan Ümummilli Lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirib. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açıb.**

Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunması haqqında sərəncamını alimlərimiz Nizami Gəncəvi kimi dünya miqyaslı qüdrətli sənətkara yenidən dönüş üçün Azərbaycan ziyalılarını səfərbər olmağa çağırış kimi dəyərləndirir. N.Gəncəvi yalnız ədəbiyyatın və sənətin yox, ümumiyyətlə, bəşəri sivilizasiya tarixindəki elə nadir simalardandır ki, onun yaradıcılığına verilən qiymət və bəslənilən ehtiram heç bir milli, irqi, dini, coğrafi sərhəd tanımır. Hər baxımdan bu nurlu insan üçün zaman çərçivəsi də mövcud deyil. Əminliklə deyə bilərik ki, onun yaşayıb-yaratdığı dövrdən keçən 880 il zaman baxımından Nizami əbədiliyinin yalnız bir epizodudur. O, tarixin hər hansı ictimai formasiya təzahürlərinin və maraqlarının fövqündədir, bəşəriyyətin addımladığı siyasi-ictimai mərhələlər onun qiymətləndirilməsində heç bir rol oynamır. Çünki 5 epik poema-romandan ibarət 60 min misralıq "Xəmsə" və lirik şeirləri öz bədii-estetik və ictimai-fəlsəfi səviyyəsinə və elmi əhəmiyyətinə görə XII əsrdə necə müasir və aktual idisə, bu gün də həmin yüksək keyfiyyətləri saxlayır.



Qədim mənbələrin verdiyi və nüfuzlu tarixçilərin, şərqşünasların da təsdiq etdikləri məlumata görə, Nizami Gəncəvinin iyirmi min beyti (qırx min misra!) müharibələr, qarətlər, yanğınlar, zəlzələlər nəticəsində itib-bataraq dövrümüzə gəlib çatmamışdır. Buna baxmayaraq, Azərbaycan şairi Nizami Gəncəvi dünya ədəbiyyatşünaslığında Homer, Vergili, Dante, Şekspir ilə bir sırada durur. Təsadüfi deyil ki, İ.V.Höte Nizami Gəncəvini *"bütün zamanların və xalqların şairi"* hesab edirdi. H.Heyne isə emosional tərzdə yazırdı: *"Almaniyanın öz böyük şairləri var... Ancaq onlar Nizami ilə müqayisədə kimdirlər ki?"*

Fərəhli haldır ki, müxtəlif xalqlar və mədəniyyətlər arasında dialoq, tolerantlıq və anlaşmanın təbliğ olunması, dahi şairin öz yaradıcılığında əks etdirdiyi ümumbəşəri dəyərlərin daha geniş miqyasda təbliğ olunması məqsədilə bir neçə il əvvəl İngiltərədə Oksford Universitetinin nəzdində N.Gəncəvi Mərkəzi təsis edilmişdir. Bu təşəbbüs AMEA-nın vitse-prezidenti, Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, akademik Nərgiz Paşayevaya məxsusdur. Həmin mərkəzin yaradılmasını Azərbaycan humanitar elminin böyük qələbəsi kimi qiymətləndirmək olar. Bu gün Oksford Universitetinin N.Gəncəvi Mərkəzi müxtəlif istiqamətlərdə elmi tədqiqatlar apararaq xüsusi elmi seminarlar (vebinarlar) təşkil edir. Mərkəz eyni zamanda Oksford Universitetində onlayn sərgilər də təşkil edir və Azərbaycan, Qafqaz, Yaxın Şərq tarixinin öyrənilməsinin müxtəlif aspektlərinin tədqiq olunmasına zəmin yaradır. Dahi şairimizin 880 illik yubileyi ilə bağlı nəzərdə tutulan digər tədbirlər də diqqətəlayiqdir.

N.Gəncəvi, hər şeydən əvvəl, realist şair idi. Onun yaratdığı obrazlar dinindən, dilindən, irqi mənsubiyyətindən asılı olmayaraq, Yer üzünün sakinləridir və onlar konkret əməl sahibləridirlər. Hər cür faydalı məşğuliyyət zəhmət, əmək tələb etdiyindən N.Gəncəvinin əmək və sərvət haqqında yaratdığı mükəmməl təlimə görə, əmək maddi və mənəvi sərvətləri artıran əsas mənbədir. O, əməyin yüksək nəticələr verməsi üçün, ilk növbədə, onun azad əmək olmasını, hər kəsin öz qabiliyyətinə görə işlə təmin edilməsi fikrini, əmək adamının daim öz bacarıq və ustalığını artırması ideyalarını irəli sürmüşdür.

Şair yazır ki, bir çox dilləri (qədim yəhudi, ərəb, fars, latın, yunan və s.) bildiyindən dünyanın məşhur alimlərinin əsərlərini diqqətlə oxuyub öyrənmişdir. Məhz bu cür hazırlıq nəticəsində tarix, dil, astronomiya, həndəsə, fizika, kimya, məntiq, fəlsəfə, ilahiyyat və digər sahələr üzrə elmi biliklərini poeziya dili ilə əbədiləşdirə bilmişdir. N.Gəncəvi mütəfəkkir alim kimi elmin onun qarşısında qoyduğu vəzifəni özünün *"Sən çalış yaxşı öyrən dünyanı, bəşəri, bitkini, daşı, heyvanı"* şüarı ilə şərəflə yerinə yetirmişdir.

N.Gəncəvinin "Xosrov və Şirin" əsərindən bir parçaya diqqət edək (şeir misralarında məzmunca müxtəlif elmi məsələlərə aid mülahizələr Ə.Əhmədovun "Nizami - elmşünas" əsərinə (Bakı-2011) istinadən verilir):

*Maqnit olmasaydı eşqin əsiri,*
*Çəkməzdi özünə dəmir zənciri.*
*Kəhrəbanın eşqə düşməsə canı,*
*Belə cəzb etməzdi quru samanı.*
*Dünyada göhvər var, daş var nə qədər,*
*Onlar nə bir saman, nə dəmir çəkər.*
*Bu saysız-hesabsız maddələr yenə,*
*Bax gör meyl edirlər mərkəzlərinə.*
*Göyə doğru çox qalxarsa su,*
*Yenə torpaq olar ən son arzusu*
*Kainatda hər şey cəzbə bağlıdır.*



Bu misralarla şair öz dövründə elmə o qədər məlum olmayan elektromaqnit anlayışından bəhs edir və eyni zamanda indi "ümumdünya cazibə qanunu" kimi mühüm əhəmiyyətli qanunun varlığını sübut edir. Həmçinin dövri olaraq dəyişən elektrik və maqnit sahələrinin fəzada yayılmasının elektromaqnit dalğaları olduğunu göstərmişdir. Bu sübut olduqca dəqiq, real faktlarla nəzmə düzülərək insanı valeh edir. Xatırladaq ki, bu qanun Nizami dövründən çox-çox sonralar - 1667-ci ildə Nyuton tərəfindən fizikada qanuniləşdirilmişdir.

"Leyli və Məcnun" əsərindəki misralara nəzər salaq:

*Yerin hüdudundan o tərəfdə də*
*...buludlar fələklər qarışır yenə,*
*Onlar bir-birinə sarılmış bərk-bərk,*
*Hamısı tor kimidir gəzir kürətək*
*Bu kürə şəklində yalnız yer deyil,*
*Hər xətt hərlənir yuvarlaqdır bil...*

Burada heyrətamiz məqam odur ki, "süd yolu"nun tədqiqində etdiyi kəşfləri ilə məşhurlaşmış Niderland astronomu Oort (1900-1992) planetlər sisteminin izahını vermişdir. Şair Nizami isə XII əsrdə şeirin dili ilə Yerin fırlandığını səsləndirirdi. Hətta tək Yerin yox, kainatdakı bütün göy cisimlərinin fırlandığını söyləyirdi. Həmin əsərdən daha bir neçə misra:

*...Tüstü bu dərədən qalxar yuxarı,*
*İki-üç cidalıq gəzər rüzgarı,*
*Sonra əyilərək geriyə dönər,*
*Bu Yer kürəsinin başına enər,*

deməklə şair bizi əhatə edən atmosfer qatını bir tüstüyə bənzədir, onun da varlığından xəbərdar olduğunu şeirin dili ilə söyləyir.

*Pərgar xətt kimi dolanan fələk*
*Yalnız bu qaydada dövr edir gerçək*

misraları müəyyən kənaraçıxmaları nəzərə almasaq, yerin öz oxu ətrafında bərabər sürətlə hərəkətinə birbaşa işarədir.

Daha sonra "İsgəndərnamə"yə müraciət edək. Burada da heyranedici məqamlar çoxdur:

*Əvvəl mövcud oldu tək hərəkət,*
*Onu iki yerə ayırdı sürət.*
*Hər iki hərəkət gəlib bir yerə,*
*Əvvəlki hərəkət ayrıldı yenə.*
*Bu üçü qoşulub bir-birinə,*
*Üç xətt zahir olur üç hərəkətdən,*
*Üç dövrə yarandı ondakı xətdən.*

Burada hərəkətin mövcudluğunu söyləyən şair, ondan yaranan bərabərsürətli və dəyişən sürətli hərəkəti də görə bilmişdi. Eyni zamanda fəza və zaman anlayışına toxunaraq üçoxlu koordinat sisteminin mövcudluğunu aydın şəkildə göstərmişdir.

*Zərrə qədər boyası rəngi varmı havanın?*
*Tutqunluğu könüllər oxşayırmı havanın?*
*Hər kim ki, əyninə göy paltar geyər,*
*Günəşi özünə çörək eyləyər...*

Şair burada işığın dispersiyası mövzusuna toxunub. Bildiyimiz kimi, Günəş şüaları yerə çatana qədər fəzada səpilir və spektral qaydada müxtəlif şəklə düşür. Göyün üzü mavi rəng alır. Böyük filosof bir şeirində Yer üzündə yalnız ağ rəngin mövcudluğunu, qalan bütün rənglərin ondan alınmasını xüsusi ustalıqla qələmə alır:

*Səma saflığında gümüş qədər ağ,*
*Günəş kimi təmiz gün kimi parlaq.*
*Gündüzün işığı ağlığındadır,*
*Ayın yaraşığı ağlığındadır.*
*Rənglər sünidir, dünyada bir ağ,*
*Bilməyir sünilik bilməyir boyaq.*

Ümumiyyətlə, Nizami irsində dünyəvi, fiziki qanunauyğunluqlar tükənməzdir. Onu da qeyd edək ki, Nizami dünyaya başqa cür baxa bilməzdi. Şairə görə, kainatın hər iki üzü - görünəni və görünməyəni bilavasitə elmlə bağlıdır. Ona görə də oğluna nəsihət nümunəsində insanları elm öyrənməyə çağırırdı.

*...Bir elm öyrənmək istədikdə sən*
*Çalış ki, hər şeyi kamil biləsən.*

*...Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz!*

*...Hər kim öyrənməyi bilməyirsə ar,*
*Sudan dürr, daşdan da gövhər çıxarar.*

Dövrümüzdə Nizaminin qələmə aldığı elm sahələri ilə bağlı düşüncələri haqqında kifayət qədər kitablar, elmi əsərlər yazılmışdır. Əslində biz, müasir ifadə ilə desək, Yer elmlərini ehtiva edən sahələr barədə Nizami Gəncəvinin poetik mülahizələrinə toxunmağımız bu gün daha məntiqlidir. Elminin və zəkasının, təbi və istedadının vurğunu olduğumuz Nizaminin əsərləri tükənməz bir bilik xəzinəsidir. Elmlə şeirin vəhdətindən yaranan bu poeziya uzun zamandan bəri mütəxəssislərin tədqiqat obyektinə çevrilsə də, bu günə kimi lazımınca öyrənilməmiş və qiymətləndirilməmişdir.

Nizami Gəncəvi şair kimi məşhur olsa da, əslində ona "alim-şair", bəlkə də "şair-alim" demək daha düzgün olardı. Çünki o öz dövrünün elmlərinə vaqif olmaqla hər bir elmi mətləbi şeir dilində təqdim edir; eləcə də onun adi həyati məsələlər haqqında yazdığı şeirləri belə elmlə doludur. "Xosrov və Şirin" əsərində oxuyuruq:

*Cəhətin başına altı yaxa saldı,*
*Yerin qucağına dörd gövhər atdı.*

Burada Nizami aləmin xilqətinin həndəsi və maddi təsvirini verir. Bundan ötrü o, Evklid həndəsəsini və Aristotel fizikasını əsas götürür. Beytin birinci misrasında fəzada olan altı cəhət nəzərdə tutulur, ikinci misrada isə aləmin fiziki və maddi əsasını göstərmək üçün Aristotel nəzəriyyəsində qəbul edilmiş dörd ünsürə istinad edilir. Bu nəzəriyyəyə görə, bütün maddi varlıqlar dörd bəsit maddədən əmələ gəlir: torpaq, hava, su, od. Nizami bunları "dörd gövhər" adlandırır. Çünki onun fikrincə, bütün aləmin cövhərini onlar təşkil edir. Təbiidir ki, maddi aləmdə baş verən hadisələrə bəsirət gözü ilə baxan hər bir müşahidəçini, ilk növbədə, hərəkət maraqlandırır. Axı bütün təbii hadisələr hərəkətin müxtəlif növləri sayəsində meydana cıxır. Bu hərəkətin ən sadəsi mexaniki hərəkətdir ki, hər addımda onunla rastlaşırıq. Dediyimizə misal olaraq "Leyli və Məcnun" əsərindən aşağıdakı misralara diqqət edək:

*Səhradan qalxan hər bulud da*
*Öz məqsədinə çatmağa tələsir;*
*Əlləşir ki, ən yüksək yerə qalxsın,*
*Amma öz yüksəlmə həddini keçə bilməz,*
*O da dövr etməyə başlayır,*
*Dairələnməyə meyl göstərər.*
*Görərsən ki, çadır şəklində dayanıb,*
*Başını yerin üfüqünə qoymuşdur.*
*Köçünə, karvanına baxsan,*
*Görərsən ki, meyli dairəyədir.*

Nizami deyir ki, tüstü və buxar (buludlar) yerdən yuxarı qalxsalar da, bu qalxma müəyyən sərhəddə olur, ondan sonra cazibə qüvvəsi onları Yerin dövrəsində dolanmağa vadar edir.

Nizami təbiətdə küləklərin fəaliyyətini və onların torpağa göstərdiyi təsiri belə təsvir edir:

*Bir külək ki, torpağı (tozu) qovmaq vəkilidir,*
*Təpənin, dərənin fərraşıdır;*
*Bundan alır, ona verir,*
*Mayanı (torpağı) gah aparır, gah gətirir.*

Sonra yerin daxili quruluşu haqqında yazır:

*Nə qədər ki, təbəqə-təbəqə yer görünür,*
*Torpaqdır ki, taya-taya qoyulmuşdur.*

Burada sadə şəkildə olsa da, Nizami geologiya elminin elementlərinə toxunur və yerin üz təbəqəsini təsvir edir (Yer qabığının lay-lay olmasını). Sonra zəlzələdən söz açır:

*Gah zəlzələ, gah sel qalxır,*
*Torpağı buradan alır, oraya tökür.*
*Elə ki zəlzələ (dağılıb) səpələyir,*
*su yuyub aparır,*
*Yer lövhəsində bir yarğan açır.*
*O yarğan zamanın təsirindən*
*Axırda bir vadiyə çevrilir.*

Nizami həm qədim, həm də öz dövründə mövcud olan bütün elmlərə vaqif və hər cəhətdən kamil bir alim olduğu üçün "Xosrov və Şirin" əsərində məğrurcasına deyir: *"Fələklərin sirrini məndən kim soruşdu ki, onları bir-bir ona başa salmadım?"*

"İsgəndərnamə" əsərinin qəhrəmanı İsgəndər bütün elmlərdən xəbərdar bir padşahdır. Lakin o, öz elmi ilə kifayətlənmir. Onu maddi aləmin və bütün kainatın mahiyyəti, yaranışı, ilk mənşəyi, inkişafı və onun keyfiyyəti maraqlandırır. Bu sahədə elmi həqiqətə nail olmaq üçün özünün etibar bəslədiyi yeddi filosofun iştirakı ilə bir elmi məclis təşkil edir və maraqlandığı elmi məsələlər barədə onların rəyini soruşur. Birinci Ərəstun sözə başlayır. Yığcam və gözəl beytlərdə Nizami Gəncəvi Ərəstunun fikrini, onun "dörd ünsürünün", yəni su, torpaq, od və havanın əmələ gəlməsi tarixini təsvir edir. Ərəstunun fikrinə görə, bu dörd ünsür əmələ gələndən sonra onların hər biri öz mərkəzində qərar tutub. Yəni torpaq ilə su aşağıda, od ilə hava isə yuxarıda yerləşiblər. Sonra bu ünsürlər bir-birinə qarışıb, onlardan müxtəlif bitkilər əmələ gəlib, daha sonra o bitkilərdən heyvanlar meydana çıxıb.

Ərəstundan sonra Vales, Bolinas, Sokrat, Forxuriyus, Əflatun və İsgəndər danışır. Sonda müzakirəyə Nizami yekun vurur və öz sözünü deməyə başlayır:

*Bundan artıq danışmaq bəyənilməz*
*ki, bu dünyanın nəqşi nəqqaşsız deyil.*
*Bütün varlıqların böyük yaradanı*
*Yüksək və ya alçaq hər nə yaradıbsa,*
*Öz nuru ilə gözləri açmışdır.*

Şair eyham vurur ki, insanın yaranmasından milyard illər qabaq yaranmış kainatın xilqətinə əql gözü ilə yol tapmaq mümkün deyil. Nizaminin sözü ilə desək, "bu yolun uzunluğunu ölçmək" işində insan əqli acizdir. Odur ki, Nizami yaranış əməliyyatına əl atmağı məsləhət bilmir. Amma o, hər şeyə göz yumub oturmağı da bəyənmir. Bu barədə o, "Leyli və Məcnun" əsərində belə deyir:

*O mayədən ki, təbiətləri yoğurdular,*
*Bizim üçün başqa bir vərəq yazdılar.*
*Ta ki, diqqətlə baxaq, sirr axtaraq,*
*İşin ucunu axtarıb tapaq,*
*Yeri və asimanı görək.*
*Bir-bir bunu da, onu da araşdıraq.*

Nizami "Sirlər xəzinəsi"ndə aşkar şəkildə çatdırır ki, Allah bütün maddi aləmi "öz feyzindən atdığı bir qətrədən" yaradıb. Məlumdur ki, Nizaminin bu fikri ilə sovet dönəmində heç kəs razılaşmazdı. Maddənin-materiyanın heç nədən yaranması sovet elmi baxımından qəbuledilməz idi. Lakin sovet elminin sütunlarından biri, dünya şöhrətli alim Y.B.Zeldoviç vəfatından bir az əvvəl - 1986-cı ildə "İzvestiya" qəzetinə verdiyi müsahibədə belə demişdi: *"Paradoksal görünsə də, mənim mülahizələrim və apardığım hesablamalar məni bu nəticəyə gətirmişdir ki, kainatın maddəsi heç nədən (yoxdan) meydana çıxmışdır".*

Mövhumata inanmayan və onu qamçılayan Nizami qiyamət məsələsinə elmi nəzərlə baxır və belə mülahizə edir ki, bir vaxt səma cisimlərinin ömrü qurtaracaq, onların hazırkı nizamı dağılacaq, Günəş, Ay, Yer və digər səyyarələr arasında olan indiki dayanıqlı müvazinət pozulacaq. Müasir astrofizika elmində səma cisimlərinin assosiasiyası və təkamülü haqqında olan bu mülahizələr deyilən fikri təsdiq edir. Vaxtilə bir mərkəzdə, bir nöqtə halında toplanmış "bir qətrə", indi kainatın ən uzaq guşələrində əvvəlki mərkəzdən uzaqlaşan sonsuz hissələrə ayrılıbsa və onlar mərkəzdən uzaqlaşaraq "genişlənən kainat" təşkil edirlərsə, bir vaxt bu genişlənmə dayanacaq, sonra həmin hissələr yenidən əvvəlki mərkəzə tərəf meyil edəcək, "sıxılan kainat" dövrü başlanacaq və bir müddətdən sonra kainatda olan maddələr yenə də bir nöqtədə toplanacaq, "kollaps" deyilən hal olacaq. Kollaps halında maddə fantastik dərəcədə sıxılır. Hesablamalar göstərir ki, Yer kürəsi kollaps halına düşərsə, o, radiusu 9 mm olan kürəyə çevrilər. Kollaps halına düşmüş maddənin cazibə qüvvəsi o qədər böyük olur ki, ona yaxınlaşan hər bir şeyi udur, hətta, ona düşən şüaları da udub kənara əks etdirmir. Buna görə də kollaps halına düşmüş cismi görmək olmur. Kainatda belə cisimlər mövcud olsa da, biz onları görə bilmirik. Müasir kosmologiya bu nəticəyə gəlmişdir ki, "genişlənən" və "sıxılan" kainat, materiyanın periodik surətdə gah bir nöqtədən sonsuzluğa, gah da əksinə yönəlmiş xüsusi inkişaf mərhələləridir və onun bəlkə də təkamülüdür.

N.Gəncəvi kainatın əmələ gəlməsi, inkişafı və bir vaxt da onun fəlakətə uğrayıb dağılacağı məsələsindən danışdığı kimi, onun mövcud vəziyyəti ilə də maraqlanır. Kainatda Yer kürəsinə oxşar cisimlərin olub-olmaması məsələsi də onu düşündürür.

Nizaminin əsərlərində İran, Yaxın Şərq və Azərbaycan xalqlarının qədim dövrlərdəki həyat tərzi və adətlərinə aid çoxlu məlumat var. O, elşünas və ya indiki istilahla ifadə etsək, bir etnoqraf, coğrafiyaçı kimi qiymətləndirilə bilər. Şair "Xosrov və Şirin" əsərində Məhin banunun həyat tərzini təsvir edərək deyir:

*Hər bir fəsildə özü üçün*
*Müəyyən bir iqlimdə yer seçir:*
*Gül fəslində onun yeri Muğandır ki,*
*Ayaq basdığı yerlər (həmişə)*
*yaşıllıq olsun.*
*Yayda Ərmən dağlarına çıxır,*
*Bir-bir güllükləri və talaları nazla gəzir.*
*Payız vaxtı Abxaza gedir,*
*Ov dalınca quş kimi uçur.*
*Qışda Bərdəyə meyl göstərir,*
*Çünki qışda Bərdənin*
*havası ılıq olur.*
*Bu qayda ilə dörd fəsil onun hesabında,*
*Hər fəsil üçün öz havası*
*onun ixtiyarındadır.*

Beləliklə, məlum olur ki, Nizami təkcə şair yox, həm də alim, kamil tədqiqatçı, genişmiqyaslı tarixçi, bir neçə xarici dilə bələd olan dilçi, nəsihətləri, tövsiyələri səkkiz əsr müddətində köhnəlməyən və bugünkü nəsil üçün daha vacib olan bir əxlaq alimidir. Cəsarətlə demək olar ki, onun əsərləri hələ tam tədqiq edilməmiş və layiqincə qiymətləndirilməmişdir. Amma ümid etmək olar ki, 20 ildən sonra dahi şairin 1000 illik yubileyinə kimi bu dahi şəxsiyyətin bütün insani, irfani, elmi, fəlsəfi və digər məziyyətlərini ehtiva edən obyektiv ensiklopediya tərtib olunacaq və dünya dillərinə tərcümə ediləcək. Düşünürük ki, Azərbaycanda 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamından irəli gələn vəzifələrin daha dolğun icrası üçün N.Gəncəvinin adı ilə bağlı bütün istiqamətləri dərindən öyrənib dünyada əlçatan etmək məqsədilə Azərbaycanda Nizami Tədqiqat Mərkəzi yaradılması məsələsinə dövlət səviyyəsində baxılacağı da məqsədəuyğun olardı.

***P.S.*** *1939-cu ildə Azərbaycan SSR MK tərəfindən Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsi qərara alınır. Amma bu yubileydə Nizamini əyani surətdə canlandıracaq hər hansı şəkli olmur. Buna görə də müsabiqə elan olunur, ədəbiyyatşünaslar, tarixçilər və rəssamlar işə cəlb edilir. Müxtəlif variantlarda Nizaminin portretini çəkirlər. Nizamişünas Yevgeni Bertels, filosof Heydər Hüseynov və ədəbiyyatşünas Həmid Araslı Nizaminin xarici görünüşünün təxmini necə olduğunu dedikdən sonra Üzeyir Hacıbəyli deyir ki, "sizin dediyiniz parametrlərdə Ağcabədidən bir axund tanıyıram". Həmin axunda Tarix - Diyarşünaslıq Muzeyindən alınmış geyimlər geyindirildikdən sonra rəssam Qəzənfər Xalıqov (1898-1981) Nizami Gəncəvinin portretini yaradaraq müsabiqənin qalibi olur.*

**Akif ƏLİZADƏ,**
**AMEA Geologiya və Geofizika İnstitutunun direktoru, akademik**

# Həyat və fəaliyyətləri örnək olan dövlət qulluqçuları unudulmur

Azərbaycanın kəhkəşanlı keçmiş tarixindən bugünə qədər çətin, burulğanlı quruluşlar yaşansa da, zaman-zaman həmişə dövrünə uyğun dəyərli siyasətçilər, alimlər, şairlər, hərbçilər, aparıcı ziyalılarla yanaşı, rəhbər kadrlar da yetişmişdir. Həmin insanlar da siyasi quruluşların hər keçid dövründə dövlətin idarə edilməsində və dövlətçiliyin qorunub saxlanılmasında müsbət rol oynamışlar. Belə rəhbər kadrlardan biri də Salman Süleyman oğlu Cəfərovdur. Yaşasaydı indi ömrün 96-cı baharındaydı. 1925-ci il dekabrın 31-də Cəlilabad rayonunun Göytəpə şəhərində sadə bir əməkçi ailəsində anadan olmuşdur. Atası Məşədi Süleyman ailə vəziyyəti ilə əlaqədar olaraq Şamaxıdan əvvəlcə Salyan rayonuna, sonradan da Cəlilabad rayonuna köçmüş və ailə burada məskunlaşmışdı.



S.Cəfərov orta məktəbi bitirdikdən sonra əvvəlcə "Bakı fəhləsi" kolxozunda hesabdar, "Azərneftkəşfiyyat" Trestinin rayon şöbəsində mühəndis-iqtisadçı, Kənd Təsərrüfatı Nazirliyində inspektor, Azərbaycan SSR Nazirlər Sovetində referent məsləhətçisi vəzifəsində işləmiş, 1953-1956-cı illərdə Moskva Həmkarlar Hərəkatı Ali Məktəbini bitirmişdir.

1956-1963-cü illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsində, 1963-1989-cu illərdə Respublika Xalq Nəzarəti Komitəsində sədr müavini və birinci müavin işləmişdir.

Respublikanın 90-cı illərdəki hakimiyyətsizliyinin təsiri Salman Cəfərova da dəymiş və o vəzifəsindən azad edilmişdir. 1989-1995-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İnstitutunda böyük iqtisadçı vəzifəsində işləmişdir. Bu müddətdə o bir çox haqsızlığa, təqiblərə məruz qalmış, işsiz günlər keçirmiş, amma heç vaxt əqidəsindən dönməmişdir. Respublikadakı xaos, hərc-mərclik hallarını tənqid etmiş, vaxtilə görülmüş işlərə kölgə salan yersiz danışanların cavabını yerində vermişdir. 1969-1982-ci illəri Azərbaycanın sosial-iqtisadi-mədəni inkişafının təməli kimi qiymətləndirmişdir.

Ulu Öndər Heydər Əliyev ikinci dəfə xalqın tələbilə hakimiyyətə qayıtdıqdan sonra ədalət bərpa olundu. Ulu Öndər Salman Cəfərovu Prezident Aparatında Dövlət nəzarəti şöbəsinin müdiri vəzifəsinə təyin etdi.

Ümummilli Lider Heydər Əliyev bilirdi ki, Salman Cəfərov əsl vətən oğludur, möhkəm əqidəyə malik şəxsdir. O, 1995-2006-cı illərdə bu vəzifədə işlədi. O dövrdə vəziyyət mürəkkəb idi. Cəmiyyətdə dövlət intizamının möhkəmlənməsinə ciddi ehtiyac var idi. Salman Cəfərov bu vəzifədə fədakarcasına çalışdı. Şöbənin formalaşmasında əhəmiyyətli olan işlər gördü. Dövlət orqanlarının fəaliyyətində yoxlama və nəzarət funksiyalarını həyata keçirən şöbənin müasir tələblərə uyğun təkmilləşdirilməsi işinə öz dəyərli töhfələrini verdi.

Salman Cəfərovun həyat fəaliyyətinə nəzər saldıqda görürük ki, o, üst-üstə ömrünün 40 ilə yaxınını Respublika Xalq Nəzarəti orqanlarının inkişafına sərf etmişdir. Ümumiyyətlə, vəzifəsindən asılı olmayaraq, uzun illər boyu çalışdığı bütün sahələrdə o, daim işgüzarlıq, peşəkarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Həmişə sadə əməkçilərin, əliqabarlının, zəhmətkeşlərin, düz əqidəli, vicdanlı adamların tərəfində dayanmışdı. Onun tutduğu vəzifə, o dövrün tələblərinə uyğun iş fəaliyyəti cəmiyyətdə əliəyriliyə, qanun pozğunluqlarına, dövlət əmlakının dağıdılmasına qarşı ciddi mübarizə olmuşdur, nöqsanları aradan qaldırmaq tədbirlərilə yanaşı, cəzalandırmaq, yeri gələndə inzibati orqanları bu işə qoşmaq təşəbbüsündə də olmuşdur. Amma bir şərtlə ki, hər şey ədalətli, qərəzsiz, qanunların aliliyinə söykənmiş olmalıydı.

Bütün bunlara görə mən deyərdim ki, ovaxtkı sovet dönəmində respublika Xalq Nəzarəti Komitəsi bir həyat məktəbi idi. Bunun nəticəsi idi ki, o orqanın kadrları hara göndərilirdi, hansı rəhbər vəzifəyə irəli çəkilirdisə, özlərini doğrultdular.

Ümumiyyətlə, o vaxtlar respublika Xalq Nəzarəti Komitəsinin bütün işçiləri, rayon komitəsinin sədrləri, hətta ictimai fəallar da daxil olmaqla irəli çəkilir və hər birinin də üzərində nəzarət olunurdu. Bu sahədə Salman Cəfərovun böyük xidmətlərini danmaq olmaz.

Salman Cəfərovun uzun illər boyu qüsursuz fəaliyyəti həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, bir sıra ali orden və medallarla, fəxri fərmanlarla, döş nişanları ilə təltif edilmiş, Azərbaycan SSR-in "Əməkdar iqtisadçı" fəxri adına layiq görülmüşdür. Həmçinin "1941-1945-ci illər Böyük Vətən müharibəsində "Rəşadətli Əməyə görə", "Əmək Rəşadətinə görə" medalları, iki dəfə "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı", "Xalqlar Dostluğu" və Azərbaycan Respublikasının "Şöhrət" ordenləri ilə mükafatlandırılmışdır.

Respublikanın qocaman dövlət qulluqçusu Salman Cəfərov həmçinin 1980-1985-ci illərdə Azərbaycan SSR Ali Sovetinin X-XI çağırış deputatı olmuşdur.

İnsan keçdiyi ömür yoluna dönüb baxanda öz izini görə bilmir. Nadir insanlara nəsib olur ki, həmişə xatırlanır. Çünki onun əməllərinin, ideyalarının, haqq-ədalətə söykənərək sərf etdiyi ömrünün özündən sonrakı izi qalır. Həmişə dövlətə və dövlətçiliyə sadiq, düzgünlük tərəfdarı, haqqın tapdanmasına qarşı barışmaz olan mübariz insan Salman Süleyman oğlu Cəfərov məhz belə insanlardan idi.

Bu gün də rəhbər vəzifələrdə çalışan hər bir məmur üçün Salman Cəfərov kimi saf əqidəli, mənən təmiz, dövlətinə, xalqına, rəhbərinə sadiq adamların fəaliyyəti və həyat tərzi bir örnək, meyar olmalıdır. Çünki o, dəbdəbədən uzaq, ölçülü-biçili, vicdan ülgüsündən kənara çıxmayan, heç kəsə əyilmədən sadə və mənalı bir həyat yaşamışdı. Bundan sonra da Azərbaycan dövlətinin, onun müdrik və qədirbilən xalqının ədalət tərəzisində belə əqidəli insanların ad çəkisi həmişə yüksəkdə dayanacaqdır.

Salman Cəfərov 2015-ci il oktyabr ayının 23-də ömrünün 90-cı ilində vəfat etmiş, Bakı şəhərinin Köhnə qəbiristanlığında həyat yoldaşı Səidə xanımın məzarı yanında dəfn edilmişdir.

Onun əziz xatirəsi dövlət rəhbərləri, ünsiyyətdə olduğu, birgə fəaliyyət göstərdiyi insanlar, doğma və əzizləri tərəfindən həmişə yad edilir.

Bunun bariz nümunəsi olaraq bildirirəm ki, onunla birlikdə işləmiş və özünü onun yetişdirməsi hesab edən, respublikanın müxtəlif rəhbər orqanlarında işləyən, onu yaxından tanıyan dost-tanışları, dövlət adamları ölümündən sonra Salman Cəfərov haqqında xatirələr kitabını çapdan buraxdırmışdır. Kitabın tərtibçisi və ön sözün müəllifi uzun müddət Respublika Xalq Nəzarəti Komitəsində işləmiş, siyasi elmlər üzrə fəlsəfə doktoru Məmmədağa Sərdarov çox böyük fərəhlə onun haqqında olan xatirələri toplamağa nail olmuşdur.

Xatirələrdə tanınmış ziyalılar və rəhbər işçilər Ziyad Səmədzadə, Musa Məmmədov, Şahlar Əsgərov və digərləri faktlara söykənən çox kövrək xatirələr və nümunəvi fikirlər söyləmişlər.

Professor Şahlar Əsgərov xatirələrində maraqlı bir sitat gətirir: "Ulu Öndər Heydər Əliyevin bir kəlamında deyilir: "Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir".

Salman Cəfərov da şərəfli ömür yaşamağı seçdi.

O vaxtlar nüfuzlu kadrların yetişdirilməsi, Salman Cəfərov kimi səriştəli, əqidəli insanların rəhbər vəzifələrə təyin edilməsinin və Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında görülən işlərin, eləcə də uzaqgörən siyasətinin nəticəsidir ki, bu gün də Azərbaycanda güclü idarəçilik sistemi, dövlət nəzarət sistemi qurulmuşdur. Ümummilli Liderin layiqli davamçısı, möhtərəm Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə nəzarətin saflığı təmin edilir, korrupsiyaya qarşı sistemli mübarizə aparılır və əhəmiyyətli nəticələr əldə olunur. Bu nəticələr qalib ölkəmizin Ali Baş Komandanına olan xalq inamı ilə, öz rəhbərinə sadiq, qədirbilən, saf insanlar hesabına qazanılır.

Respublikamızın bu gün çiçəklənməsi naminə ömür sərf etmiş, xalqa, vətənə sədaqətlə xidmət göstərmiş Salman Cəfərov kimi fədakar dövlət qulluqçuları da heç vaxt unudulmur.

***Vəliyəddin İSMAYILOV,***
***təqaüddə olan dövlət qulluqçusu,***
***Respublika Ağsaqqallar Şurasının üzvü***

# Ermənilərin 91 faizi artıq Qarabağı düşünmür



*Əvvəli 1-ci səh.*

Paşinyanın bu məsələdə qalib gəldiyi bir vaxtda Ermənistanın xarici işlər naziri Ara Ayvazyan baş nazirin mövqeyinə zidd açıqlama ilə çıxış edib. Bildirib ki, Ermənistan silahlı qüvvələrinin baş qərargahının hökumətin istefası tələbi ilə verdiyi bəyanat hərbi çevriliş cəhdi deyildi. Ayvazyan hesab edir ki, hərbçilərin açıqlaması yalnız onların siyasi mövqeyini əks etdirir: "Siyasi bir bəyanat verildi, bu da özlüyündə hərbi çevriliş cəhdi deyil. Bununla əlaqədar olaraq müxtəlif dövlətlərdən və beynəlxalq təşkilatlardan oxşar qiymətləndirmələr oldu. Ermənistanda hərbi çevrilişin elementləri yoxdur".

Göründüyü kimi, hakimiyyətin özündə belə baş verən proseslərlə bağlı yekdil fikir yoxdur.

Bu arada ABŞ-ın Beynəlxalq Respublika İnstitutunun Ermənistanda keçirdiyi ictimai rəy sorğusu bir sıra həqiqətlərə yeni işıq salıb. Sorğunun nəticələrindən görünür ki, erməniləri daha çox maraqlandıran onların sosial-iqtisadi vəziyyətləridir. Qarabağ məsələsi ermənilərin yalnız 9 faizini, sərhəd problemləri 5 faizini, Ermənistanın milli təhlükəsizliyi cəmi 3 faizini maraqlandırır.

Ümumiyyətlə, müharibədən sonra beynəlxalq təşkilatların Ermənistanda keçirdiyi sorğulardan belə nəticəyə gəlmək olar ki, cəmiyyətin böyük əksəriyyəti sosial-iqtisadi problemlərlə maraqlanır. Eyni zamanda insanlar indiki vəziyyətdə müxalifətə və keçmiş hərbi xuntaya dəstək verməməklə Nikol Paşinyana alternativ görmürlər.

Bununla belə ölkədə korrupsiya və rüşvətxorluq sürətlə artır. Bu, sadə ermənilərin və sahibkarların xaricə üz tutmasına səbəb olur. Hazırda Ermənistan əhalisinin 36,7 faizi kəndlərdə, 63,3 faizi isə şəhərlərdə yaşayır. Yerlərdə həyat şəraitinin ağırlığı kəndlərin sürətlə boşalmasına gətirib çıxarıb. Buna konkret misal olaraq Lori vilayəti göstərilir. Rəsmi məlumata görə, 15 il ərzində 38 mindən çox insan vilayəti tərk etməyə məcbur olub. Rəsmilər sürətlə azalmaqda olan əhalinin sayını artırmaq məqsədilə bol vədlər verir, insanları şirnikləndirir, xaricdə yaşayan erməniləri Ermənistana dəvət etmək üçün müxtəlif addımlar atırlar. Lakin bu vədlərə heç kim inanmır.

Ümumiyyətlə, son 30 ildə işğal siyasəti səbəbindən Ermənistan yerində sayıb, inkişafdan uzaq olub. Müharibədəki məğlubiyyətdən sonra isə ölkə elə bir böhrana düçar olub ki, ondan çıxmaq müşkül işdir. Ölkədə həlli görünməyən problemlər cəmiyyət həyatının bütün sahələrini başına götürüb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# «Şəhid olsam, ağlamayın»

## Şəhid kapitan Emin Mahmudovun ailəsinə dediyi son söz bu olub

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Qələbə dövlətimizin nə qədər qüdrətli olduğunu bütün dünyaya nümayiş etdirdi. Xalqımız 44 günlük müharibədə böyük uğur qazanaraq bütün dünyaya sübut etdi ki, Azərbaycan güclü dövlətdir və onun qüdrətli ordusu var. Bu ordu lazım gələndə yüksək peşəkarlıq nümayiş etdirərək düşmənə layiq olduğu yeri göstərməyə qadirdir.

Xalqımız indi haqlı olaraq bu cür ordu və onun vətənpərvər, qorxmaz, qeyrətli əsgər və zabitləri ilə fəxr edir. Belə oğullardan biri də düşmənə qarşı döyüşlərdə qəhrəmanlıq nümayiş etdirərək əbədi ölməzlik zirvəsinə yüksələn kapitan Mahmudov Emin Pünhan oğludur.





Emin Mahmudov 1994-cü ildə Tovuz rayonunun Abulbəyli kəndində anadan olub. Hələ uşaqlıq illərindən arzusu hərbçi olmaq idi. Vətənə, torpağa, xalqa xidmət etmək arzusu ilə Ali Hərbi Akademiyanı yüksək qiymətlərlə bitirərək ən qaynar nöqtələrdə xidmətə başlayıb. İdmanla məşğul olduğu üçün fiziki, mənəvi-psixoloji hazırlığı ilə seçilən Emin xidmət zamanı bir çox fəxri fərmanlarla və medallarla mükafatlandırılıb.

O, 2016-cı ilin aprel döyüşlərində peşəkar zabit kimi böyük şücaət göstərib. İkinci Qarabağ müharibəsində də qəhrəmanlıq nümayiş etdirən Emin Suqovuşan qəsəbəsinin azad edilməsinin iştirakçısı olub. Füzulinin, Cəbrayılın bir sıra kəndlərinin azad olunmasında iştirak edən Emin Hadrut qəsəbəsinin düşməndən təmizlənməsində xüsusi xidmət göstərib. Hərbçi yoldaşlarının dediklərinə görə, o, döyüşlərin birində yaralansa da, son nəfəsinədək vuruşub, Hadrutda 80-dən artıq əsgərimizin düşmən mühasirəsindən çıxmasında fədakarlıq göstərib. Lakin ağır gedən döyüşlərin birində Emin düşmən gülləsinə tuş gəlib, elinə-obasına şəhid kimi dönüb.

Tovuzda olarkən şəhidin ailəsi ilə görüşməyi qərara aldıq. Bizi şəhidin atası Pünhan kişi, hələ də başlarındakı qara yaylıqları açılmayan anası Bəsti və həyat yoldaşı Aytac xanım qarşıladılar. Pünhan kişinin ilk sözü bu oldu: "Biz Eminlə fəxr edirik. Hər birimiz yaşımızdan aslı olmayaraq vətənimiz, torpağımız uğrunda canımızdan keçməyə hazır olmalıyıq. Mənim 60-a yaxın yaşım var, ancaq bu dəqiqə vətən yolunda döyüşə getməyə hazıram. Bundan böyük şərəf ola bilməz. Qürur hissi keciririk ki, Qarabağımızı işğaldan azad etdik. Mənim oğlum da Vətən uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəldi. Bu da onun taleyi imiş. Vətən sağ olsun!"

Pünhan kişi onu da dedi ki, axırıncı dəfə Eminlə oktyabrın 11-də telefonla danışıb: "Dedi ki, məndən nigaran qalmayın. Hər şey yaxşı olacaq. Sonra həyat yoldaşı ilə danışdı. Nə dedisə yoldaşının rəngi ağardı. Sonra öyrəndik ki, ona deyibmiş ki, hər şey ola bilər. Sən zabit yoldaşısan. Odur ki, şəhid olsam, ağlama".

Eminin 4 yaşlı oğlu Hüseyn və yaş yarımlıq qızı İnci yadigar qalıb. Üçüncü övladı isə bu yaxınlarda dünyaya gələcək. Döyüşlərə atılanda həyat yoldaşına deyib ki, qızı olsa adını Zeynəb, oğlu olsa İlham qoyarsınız.

Ailə üzvləri evin bir küncündə Eminin aldığı mükafatlardan və şəkillərdən ibarət guşə yaradıblar. Guşə ilə tanış olarkən gözümüzə divardan asılmış saz sataşdı. Saza diqqətlə baxdığımızı görən atası Pünhan dedi ki, Emin saz havalarını çox sevirdi. Özü də sazda ifa etməyi çox xoşlayırdı.

Emin Mahmudov Vətən müharibəsində göstərdiyi igidliyə görə ölkə başçısı tərəfindən "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Vətən müharibəsi qəhrəmanlarının muzeyləşən ömürləri

## Milli Azərbaycan Tarixi Muzeyində yaradılan yeni fondda Zəfər qaliblərinin şəxsi əşyaları toplanır

Cəmiyyətin inkişafında mühüm rol oynayan amillərdən biri gənc nəsildə yüksək vətənpərvərlik hisslərinin formalaşdırılmasıdır. Şübhəsiz ki, hələ körpə yaşlarından bu ruhda köklənən nəsildə vətənpərvərlik duyğusu yüksək olur. Artıq bunun ən bariz nümunəsinin 44 günlük Vətən müharibəsində şahidi olduq. Qarabağı görməyən minlərlə qəhrəman oğullarımız Vətən sevdası ilə tərəddüd etmədən özünü ölümün üzərinə atdı.





Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qəhrəman oğullarımız düşməni diz çökdürərək, torpaqlarımızı işğalçılardan təmizləyib, ərazi bütövlüyümüzü bərpa etdilər. Bir sözlə, ölkəmiz bu zəfəri xalqla dövlətin sarsılmaz birliyi, "Dəmir yumruq" olaraq birləşməsi sayəsində qazandı.

Öz əməlləri ilə bu dövlətin şərəfli tarixini xalqın qan yaddaşına qızıl hərflərlə həkk etmiş qəhrəmanlarımız heç vaxt unudulmayacaq. Milli Azərbaycan Tarixi Muzeyində könüllü tələbələrdən ibarət "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun rəhbəri və bir neçə üzvü " Tarix yazan qəhrəmanlar" layihəsi çərçivəsində torpaqlarımızın azad edilməsində, qələbənin qazanılmasında böyük şücaət göstərərək canını Vətən yolunda qurban verən igidlərimizin ailəsi ilə görüşlərə başlayıblar.

Layihə çərçivəsində "Tarix yazan qəhrəmanlar"dan biri - şəhid polkovnik-leytenant Rəşad Sadıqovun haqqında muzeyin yeni yaradılan fonduna təhvil verilən sənədlər barədə qısaca məlumat verməkdə məqsəd şəhid, qəhrəman igidlərimizin örnək ömürlərini xalqımıza əbədiyyətəcən tanıtmaqdır.

Sənədlərdən, eləcə də söhbətlərdən məlum olur ki, Rəşad Xanlar oğlu Sadıqov 1978-ci il oktyabrın 11-də Laçın şəhərində anadan olub. 1992-ci il mayın 18-də Laçın rayonu düşmən işğalına məruz qaldığı üçün valideyinləri ilə birgə şəhəri məcburən tərk edib. Həmin il ailə Şəmkir şəhərində məskunlaşdığı üçün o, Əhməd Cavad adına orta məktəbdə təhsilini başa vurub...

Məktəbi bitirdikdən sonra həkim olmaq istəyirdi. Lakin Xocalı qətliamından sonra fikrini dəyişərək hərbçi olmaq qərarına gəldi. 1992-ci ildən başlayaraq doğma və tarixi Azərbaycan torpaqlarımız, kənd və qəsəbələrimiz, firavan həyatlı şəhərlərimiz dalbadal işğala məruz qaldığından o, fikrini qətiləşdirdi: 1995-ci ildə Bakı Birləşmiş Ali Komandirlər Məktəbinə daxil oldu. 1999-cu ildə məktəbi bitirib leytenant rütbəsi ilə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda xidməti vəzifə üzrə təyinat aldı. 2004-cü ildən isə Naxçıvan şəhərində Heydər Əliyev adına hərbi liseydə fəaliyyət göstərməyə başladı. Sonra Naxçıvan şəhəri hərbi səfərbərlik idarəsində və daha sonra Naxçıvan şəhəri hərbi hospitalında çalışdı, müəyyən vaxtlarda "N" saylı hərbi hissədə xidmət etdi. Xidmət müddətində bir çox orden və medallar qazanan Rəşad Sadıqov 2019-cu ilin mart ayında Goranboy rayon "N" saylı hərbi hissəyə təlim-tərbiyə üzrə komandir müavini vəzifəsinə təyin edildi. Ön cəbhədə düşmənlə üz-üzə dayanan R.Sadıqov, eyni zamanda ən çətin məqamlarda yerli əhalinin də yanında oldu. 2019-cu ilin aprelində Goranboy rayonu Yuxarı Ballıqaya fərdi yaşayış evində baş verən yanğın zamanı fədakarlıq göstərərək köməksiz qalmış uşağı yanğından xilas edən Rəşad onu ailəsinə sağ-salamat qaytardı.

Ən böyük arzusu doğma yurdu olan Laçının düşmən tapdağından azad edilməsi idi. Axır ki, 28 ildən sonra 27 sentyabr 2020-ci il tarixində onun gözlədiyi döyüş əmri gəldi. Bu əmri səbirsizliklə qarşılayan R.Sadıqov sevincini doğmaları ilə bölüşərək deyir: "Əgər müharibə dayanmasa, biz davam etsək, Laçına qədər gedəcəyik..."

Çoxdan arzuladığı fürsəti qazanan R.Sadıqov Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonları, eləcə də doğma kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşdü. Sonuncu dəfə "Laçının Güləbird kəndi uğrunda gedən döyüşlərdə iştirak etdi. Kəndin düşməndən azad edilməsində böyük rəşadət göstərdi. Hətta atasına zəng edərək "Ata, Həkəri çayında əlimi yudum, bundan böyük qələbəmi olar?!" dedi.

O, doğulduğu Laçın şəhərinə, orada yarımçıq qalmış uşaqlıq illərinə qovuşmağa çox tələsirdi. Laçın şəhərinə çatmaq üçün cəmi 25 km məsafə qalmışdı. Təəssüf ki, o, bu məsafəni qət edə bilmədi. Doğma yurduna az qalmış, qələbənin astanasında, amansız düşmənin atdığı minamyotun partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid oldu. Dostları və yaxınları ona "general" olmağı arzulayan zaman "daha uca zirvələr var" deyərdi. 30 oktyabr 2020-ci il tarixində Rəşad Sadıqov məhz o ucalığa - Səhidlik zirvəsinə ucaldı. Bir qız və bir oğul övladı yadigar qaldı...

Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, Rəşad Sadıqov ölümündən sonra " Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə " və "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

Şəhidliyindən 13 gün sonra Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş atası Xanlar Sadıqov 28 il yurd həsrətinə dözsə də, qələbə ərəfəsində oğlunun cismani yoxluğuna tab gətirə bilmədi...

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Milli Azərbaycan Tarixi Muzeyində yaradılmış Vətən müharibəsi fondunda toplanmış I və II Qarabağ müharibəsində şəhid olan zabit və əsgərlərə məxsus, döyüşdən qalan xatirə əşyaları içərisində şəhid polkovnik-leytenant Rəşad Sadıqovun hərbi geyim dəstləri, ailəsinə yazdığı son məktub, hərbi təlim gündəliyi, fənəri, telefonu, saatı, ölümündən bir neçə gün öncə yanlarına düşmüş kasetli raketin qəlpələri üzərində olan pullar, fləş-kartı, "Bakubas" kartı, telefonun plastik yaddaş kartı da var.

Bu əşyalar şəhidin ailəsi tərəfindən muzeyə təqdim edilib. Sözsüz ki, muzey xalqın tarixi yaddaş salnaməsi, eyni zamanda vətənpərvərlik təliminin, dövlətçilik ənənələrinin daşıyıcısı olan mədəniyyət mərkəzidir. Etiraf etməliyik ki, gənclərin düzgün istiqamətdə tərbiyəsində təhsil müəssisələri ilə yanaşı, mədəniyyət müəssisələrinin, xüsusilə də muzeylərin özünəməxsus rolu var.

Xalqımızın mübarizə və qəhrəmanlıq tarixini göstərmək və bunu gənc nəslə bir nümunə olaraq təqdim etmək muzeylərin qarşıya qoyduğu əsas məqsədlərdəndir.

Unutmayaq ki, cəmiyyət böyüməkdə olan gənc nəsli həyata necə hazırlayırsa, o cür də gələcək gözləyir.

***Sahibə ƏLƏKBƏROVA,***
***AMEA Milli Azərbaycan***
***Tarixi Muzeyinin Elmi-kütləvi iş və təhsil şöbəsinin elmi işçisi***




# Şərqin birlik bayramı

**Şərq, o cümlədən türk xalqlarının qədim bayramı olan Novruz şimal yarımkürəsində astronomik baharın başlandığı gün, gecə ilə gündüzün bərabərliyi qovuşuğunda keçirilir. Qədim dövrlərdə bu bayramın adı Novruz deyil, Tura adlanardı. Tura - Törə (törəmək) sözündən yaranıb ki, bu gün dilimizdə işlətdiyimiz Turan sözü də bu addan götürülüb. Əcdadlarımız qədəm qoyduqları bütün bölgələrdə Tura bayramını böyük coşqu ilə qeyd ediblər. Tura yeni günün başlanğıcı kimi qeyd edildiyindən farslar bu sözü Nov - yeni, ruz - gün ilə əvəzləyiblər. Sonralar elə bayramın adı Novruz kimi yaddaşlarda daha çox yaşayıb.**



Martın 21-də günəş şimal yarımkürəsinə keçir və oranı isitməyə başlayır. Beləliklə də, o gün baharın başlanğıcı olaraq qəbul edilir. İran və Əfqanıstanda isə martın 21-i rəsmi təqvimin də ilk günü sayılır.

Azərbaycanlıların Novruz, qırğızların Nooruz, özbəklərin Növroz, başqırdların Nevruz, tatarların Navruz, çuvaşların Naurus, Krım türklərinin Nevrez, Qərbi trakiyalıların Mevris adlandırdıqları bu bayram bir sıra türk xalqları tərəfindən müxtəlif, rəngarəng adətlərlə el bayramı kimi geniş qeyd olunur.

Türkiyənin **Anadolu** bölgəsində "Sultan Novruz", "Novruz Sultan", "Mart doqquzu" və "Mart Bozumu" kimi adlarla tanınan Novruz adətləri bütün türk toplumu içərisində yaşadılır. Bu bölgədə Azərbaycanda olduğu kimi, qapı busma, baca-baca adətləri yaşadılır. Anadolu ətrafında bu oyunlar adətən martın 21-də böyük coşqu ilə keçirilir. Keçmişdə həmin günə xas olaraq məcunlar, şərbətlər, hədiyyələr hazırlanaraq dövlət adından böyükdən kiçiyə hər kəsə paylanardı. Günümüzdə bu adət Anadoluda "Məsir Məcunu Şənlikləri" adı altında hələ də davam etməkdədir.

K.Yudahinin əsərində **Qırğızıstanda** Novruz bayramının mart ayında olduğu və yeni ilin ilk günü anlamına gəldiyi ifadə edilir. Bu gündə "Nouruz Köcö" deyilən xüsusi yemək hazırlanır. "Köcö" darı yarması və ya bulqur əlavəsi ilə hazırlanan yemək növüdür. Qırğız süfrəsində məxsusi olaraq Novruzda quzu ətindən və əriştəyə oxşar un məmulatından hazırlanmış beşbarmaq olur. Bu şirniyyat əllə yeyildiyi üçün belə adlanır.

Qırğızıstanda Novruzda tonqal qalamırlar, amma evin, həyətin odla pak edilməsi adəti var. Qırğızlar bunu qədim türk şamanlarından qalma adət hesab edirlər. Onlar "Alas-alas, hər bəladan xilas" deməklə öz həyətlərini atəşlə pis ruhlardan təmizləyirlər.

**Qazax türkləri** də qırğızların hazırladığı həmin aşı bişirirlər. Onlar Novruz mərasimlərində ənənəvi olaraq mövlud oxudurlar. Həmin gün evlərdə təmizlik işləri aparılır, yeni paltarlar geyinilir. Novruz mərasimləri sırasında evlərin divarlarına və əşyaların üstünə gildən hazırlanmış qabları çırparaq parçalamaq və ocağın üstündən atlanmaq adətləri də var. Bu adət köhnə ilin pisliklərindən, xəstəliklərindən yeni ildə uzaq olmaq məqsədi daşıyır.

**Türkmənistanda** bayramdan beş-altı gün öncə evlərin təmizlənməsinə başlanır. Türkmən çörəyi, plovu və müxtəlif şirniyyatlar hazırlanır. "Səməni" Novruzun xüsusi yeməyi sayılır. Bir neçə ailə bir araya gəlib, böyük qazanda buğda, un və şəkərdən "səməni" bişirirlər. Bayrama bir gün qalmış bişirilən bu yemək martın 21-də süfrələri bəzəyir. Qarşılıqlı ev ziyarətləri edilir, təbrik mesajları göndərilir.

**Özbəkistan** böyük bir məmləkət olduğu üçün ölkənin hər yerində müxtəlif adətlər var. Məsələn, Surxəndəryada adamlar asimandan yağmur gözləyirlər. Üzlərini böyük bir qocaman qadının - Sus xatının şəklinə tutub yağış istəyirlər. "Sus xatın, susma xatın, yağmur yağdır" deyə şərqi söyləyirlər. Novruzda Özbəkistanda məmləkətin yaşlı adamı əlini yağa batırar və öküzlərin buynuzunu yağlar ki, yeni il bərəkətli olsun.

Səmərqənd, Buxara, Əndican şəhərlərində Novruza həsr edilmiş şənliklər bir həftəyə qədər davam edir. İnsanlar bu mərasimlərdə çadır-çadır gəzərək bir-birilərinin bayramlarını təbrik edirlər. Bu ziyafətlərdə qonaqlara plov təqdim edilir. Köpkarı, güləş, at yarışları, xoruz döyüşləri kimi nümayişlər hazırlanır. Özbəklər Novruz süfrəsi üçün şəkərdən hazırlanmış "nişala" bişirirlər. Özbək plovu, samsa və sümələk də bişirdikləri xüsusi yeməklərdən ən məşhurlarıdır. Süfrəyə s hərfi ilə başlayan 7 nemət, Novruz günü bir-birilərini qucaqlamağa və danışmağa başlamazdan əvvəl üç qaşıq bal yemək ən əski adətlərdəndir.

**Tacikistanda** süfrəyə qoyulan süd təmizliyi, şirniyyat yaşama sevincini, şəkər sərinlik və istirahəti, şam atəşə sitayişi, daraq qadının gözəlliyini təmsil edir. Uşaqlar qapı döyüb bayram payı istəyir, ancaq gizlənmirlər. Onlar yaz çiçəklərindən dərib yığır, qapıları döyüb, ev sahibinə çiçəklərdən hədiyyə edirlər. Ev sahibi isə onlara şirniyyat, yumurta, ya da pul verir.

**Əfqanıstanda** yeddi meyvə qurusundan hazırlanmış "Həft meyvə", Novruz külçəsi adlı xüsusi qurabiyə, qızardılmış balıq Novruz yeməklərinə aiddir. Smanak adlı buğdadan hazırlanan şirniyyatı isə qadınlar gecə xüsusi nəğmələr oxuyaraq bişirirlər. Bayram günü hər kəs təzə libasını geyinir. Yaxınların məzarları və qohum-əqrəba ziyarət edilir. Güləş tutulur və oğlaq oyununa başlayırlar. İnsanlar arasındakı inciklik, küsülülük aradan qaldırılır. Xalq yeni ilə necə başlanarsa, ilin elə keçəcəyinə inanır.

Əfqanıstanda Novruz şənliklərinin mərkəzi Məzari-Şərif şəhəridir. Əfqanların inancına görə, Məhəmməd Peyğəmbərin kürəkəni Həzrət Əlinin məzarı bu şəhərdədir. İnsanlar həmin şəhərə toplaşır, Həzrət Əlinin ziyarətgahında xüsusi sərgilər, mərasimlər, şoular təşkil olunur. Novruzda Məzari-Şərifdə müxtəlif oyunlar, yarışmalar da keçirilir - xoruz döyüşdürürlər, it boğuşdururlar. Bu yarışmaların mövsümü Novruzda başlayır, sonra 3-4 ay davam edir. Çərpələng uçurma kimi başqa oyunlar da olur.

**Altayda** martın 21-də "Cilgayak" bayramı qeyd edilir. Bu bayram da Novruz kimi baharın gəlişi, təbiətin canlanması, yeni ilə qədəm qoyulması üçün keçirilir. Süfrəyə bal qatılmış qatıq, dondurulmuş və qurudulmuş ət, qoyun və mal dırnağından yeməklər təqdim edilir. Bu bayramın hazırlıqları yaz mövsümündə başlanır. Əvvəlki ildən qalan, toplanaraq saxlanılan bitkilərin kökləri çıxarılaraq onlardan yeməklər hazırlanır.

**Saka türklərinin** yaşadığı Sibirdə də bahar bayramı böyük coşqu ilə qeyd olunur. Bu bayram o bölgədə İsiah adı ilə qeyd olunur. İsiah bayramında dua və qımızla mərasim keçiriləcək sahələr təmizlənilir. Mərasim meydanlarında yarım ay əvvəldən yeni ağ ağaclar əkilir. Meydanda böyük tonqal qalanır və bu tonqal mərasimlər bitənə qədər söndürülmür. Ağ ağaclara əvvəl gənc qızlar və oğlanlar olmaqla, bütün xalq təzə ildə həyata keçməsini istədikləri dilək tutub parça bağlayırlar. Bu inanc və adət dünyanın demək olar ki, bütün türk xalqları tərəfindən hələ də yaşadılır.

"Gökböri oyunu" oyunların şahı hesab olunur. At yarışları, cirit oyunu, qılınc sallama, yamba qapma, güləş, at üzərində güc göstərmə, sinsin, huntu kimi oyunların əksəriyyəti idman növü hesab olunur. Oyunların bir qismi isə tamaşa motivlidir.

"Kosa-Kosa" oyunu, "dəvə oyunu", "əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş oyunu", "qış bovay", "yolbar", "arğımaq" kimi oyunlar da türk xalqlarının Novruz ənənələrinə daxildir. Novruz bayramında məhəlli əyləncələrə də xüsusi yer verilir. Belə ki, gənclər öz aralarında mahnı və şeir söyləyərək yarışırlar.

Təbiətin canlanmasının, birlik və bərabərliyin simvolu, mahiyyətində böyük fəlsəfə daşıyan, ölüb-dirilən təbiət, yenilənən insan ruhaniyyətinin tərənnümçüsü olan Novruz Qafqazda, Mərkəzi Asiyanın türk respublikalarında XX əsrin əvvəllərindən başlayaraq 1960-cı illərə qədər bəzi siyasi səbəblərə görə qadağan edilib, onun unutdurulmasına çalışılıb. Lakin ötən əsrin 90-cı illərindən etibarən öz müstəqilliklərini elan edən postsovet məkanına daxil olan türk respublikaları keçmişlərinə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərə diqqəti artırdı və Novruz bayramı da dövlət səviyyəsində rəsmi bayram kimi qeyd olunmağa başladı.

Beləliklə, uzun illər təqiblərə məruz qalmasına, hətta keçirilməsi qadağan olunmasına baxmayaraq, türk xalqları Novruz bayramına sahib çıxdı və onu bu gün də yaşatmaqda davam edirlər.

# Təbiət təqvimi

**Təzə ilin köhnə ili (yaxud təzə dünyanın köhnə dünyanı) əvəz etdiyi Novruz bayramında getməkdə və gəlməkdə olan iki zaman üz-üzə dayanır. Bu vaxt əvəzlənməsində ən mühüm məqam ilin təhvil olunduğu zaman kəsiyidir. Onların bir-birini əvəz etməsi martın 21-də Novruz bayramında baş verir.**



Əksər ölkələrdə, o cümlədən Azərbaycanda il yazdan hesablanır. Qədim misirlilər ilin başlanmasını Nilin daşmasından götürürdülər. Bəzi ölkələrdə isə ilin başlanğıcı kimi yeni hökmdarın hakimiyyətə keçməsi, bəzilərində güclü küləklərin başlanması (Şumerdə), paytaxt şəhərinin əsasının qoyulması (Romada), Olimpiya Oyunlarının keçirilməsi (Yunanıstanda) qəbul edilmişdi.

Ərəblər ilin başlanğıcı üçün Məhəmməd Peyğəmbərin Məkkədən Mədinə şəhərinə köçməsi (hicrət) gününü (miladi tarixlə 622-ci il 16 iyul) götürmüşlər. Müsəlman ölkələrində geniş yayılmış bu təqvim "hicri tarix" adı ilə məşhurdur.

Rusiyada qədim tarixə görə ilin başlanğıcı baharın başlanğıcı götürüldüyündən yeni il martın 1-i tarixindən götürülürdü. Çar III İvanın dövründə 1492-ci ildə yeni il Vizantiyadakı kimi sentyabrın 1-nə keçirilirdi. Çar I Pyotrun sərəncamı ilə "dünya yaranması" təqvimi Yuli təqvimi ilə əvəz edildi və yeni il yanvarın 1-dən başladı.

Yuli təqvimi Yuli Sezarın göstərişi ilə bir qrup İsgəndəriyyə astronomu tərəfindən tərtib edilib və e.ə. 45-ci ildən Roma imperiyasının təqvimi olub. İlin orta uzunluğu 365,25 gündür. Fevral ayı hər 4 ildə 3 dəfə 28, bir dəfə isə 29 gündən ibarət olur. Bu təqvim hər 400 ildə təbiət təqvimini təxminən 3 gün üstələyirdi. Məsələn, əgər eranın başlanğıcında gecə-gündüz bərabərliyi martın 23-nə düşürdüsə, 1600-cü ildə martın 11-nə təsadüf etməli idi. Ona görə də Papa XIII Qriqori təqvimdə islahat etməyə məcbur olur. 4 oktyabr 1582-ci ildən yeni Qriqori təqvimi tətbiq edilməyə başlanır. Həmin ildə hər ayın tarixi 10 gün sürüşdürülür, qısa və uzun illərin növbələşməsi saxlanılır. Qərara alınır ki, illərin nömrələrindən hansı biri iki sıfırla bitirsə və yüzlüklərin sayı 4-ə bölünmürsə, o ili qısa il hesab etsinlər. Qriqori təqvimi də Yuli təqvimi kimi 12 aydan ibarətdir və yeni il yanvarın 1-də başlayıb dekabırın 31-də qurtarır.

Qriqori təqvimi 1582-ci ildən tətbiq olunsa da, ayrı-ayrı ölkələrdə bu təqvimə müxtəlif vaxtlarda keçilib. Rusiyada Qriqori təqviminin tətbiqinə 1918-ci ildə Vladimir Leninin dekreti ilə başlanılıb. Hazırda dünyanın əksər ölkələrinin, o cümlədən Azərbaycan Respublikasının rəsmi təqvimi Qriqori təqvimidir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Sağlıq olsun

# Bahar - qanın qaynayan dövrü

**Həkim məsləhəti**

**Bahar gəlir, günəş aləmə nur çiləyir, torpağın canı qızır, güllər, çiçəklər yavaş-yavaş boy göstərməyə başlayır. Təbiətin bu yaz coşqusu insanlarda da əhvali-ruhiyyənin yüksəlməsinə səbəb olur. Xalq arasında deyildiyi kimi, "qan qaynayır". Bəs "qanın qaynaması" anlayışını tibb necə izah edir?**



Terapevt Mətanət Cəfərlinin sözlərinə görə, bu fəsildə damarlar daralır, endorfin ifraz edilir, insanların əhvali-ruhiyyəsi yaxşılaşır. Daralmış damarda qan daha sürətli dövran edir və elə ona görə də buna "qan qaynayır" deyirlər.

Həkim bildirir ki, baharın gəlişi bədənin oyanması ilə nəticələnsə də, bir sıra xəstəliklərə də yol açır, vitamin çatışmazlığı baş verir, orqanizmin müqaviməti aşağı düşür: "İmmunitet zəiflədiyindən soyuqdəymə halları baş verir, yuxarı və aşağı tənəffüs sistemi xəstəlikləri, qrip kimi epidemiyalara yoluxma riski artır. Yazda bağırsaq xəstəlikləri də kəskinləşir. Xora, qastrit, xroniki qastritdən əziyyət çəkənlər bu günlərdə ehtiyatlı olmalıdırlar. Allergik xəstəliklər də bu fəsildə baş qaldırır. Məsələn, bronxit, astma xəstəlikləri allergik tiplidir və yazda tozlanma ilə bağlı olaraq kəskinləşə bilər. Ürək-damar xəstəliklərindən əziyyət çəkənlər meteohəssas insanlar qrupuna aiddirlər. Onlar işemik xəstəliklərdən əziyyət çəkirlər. Havanın qəfil dəyişməsi (mart ayında hava gah isti, gah soyuq olur), kardio infarkt keçirmiş insanlara öz mənfi təsirini göstərir. Təzyiqi yüksək olanlar da meteohəssas insanlardır. Onlar dərman içsələr də, təzyiqləri normaya düşmür. Bu cür hava normal insanların ürək-damar sisteminə də təsir edir".

### Bəzi insanların əhvalı yüksəlir, bəzilərinin isə...

Terapevt vurğulayır ki, yazın gəlişi sinir-damar tonusuna təsir göstərdiyi üçün əhvali-ruhiyyə dəyişir. Bəzi insanların əhvalı yüksəlir, bəziləri isə sinir krizi keçirir, əsəb, depressiyadan əziyyət çəkir: "Sinir sistemində baş verən hər hansı qıcıq damara da təsir edir. Orqanizmin emosional sferasından asılı olaraq hər kəs dəyişikliklərə müxtəlif cür reaksiya verir. Çünki insan psixologiyasında 4 temperament tipi mövcuddur: sanqvinik, xolerik, fleqmatik, melanxolik. Bəzi insanlarda depressiya, stressə meyillilik yaranır. Bəzənsə tam əksinə, insanın əhvalının yaxşılaşmasına səbəb olur. Buna da el arasında "qanın qaynaması" deyirlər. Belə nəticəyə gəlinir ki, "qan qaynaması" müəyyən qədər endorfin miqdarının artmasına səbəb olur. Bəzi insanlarda depressiya, yuxuya meyillilik, işdən soyuma hallarının baş verməsi isə kortizolun miqdarının artması ilə bağlıdır.

### Yaz depressiyasına düşməmək üçün bunlara əməl etmək vacibdir

Həkim pis hallardan qorunmaq, depressiyaya düşməmək üçün və işdən soyuma halları baş verdikdə qısa müddətə olsa da, istirahət götürməyi, təmiz havada gəzməyi, bol maye qəbul etməyi məsləhət görür. Vitamin, minerallarla zəngin meyvə-tərəvəzləri bol-bol qəbul etmək də vacibdir: "İnsan bədəni və psixologiyası yaz fəslinə uyğunlaşması üçün bir həftə və ya 10 gün adaptasiya dövrü keçir: "Əksər insanlar yaz gələrgəlməz yuxulamaqdan şikayət edirlər. Yuxululuğa səbəb kartizol - stress hormonunun artmasıdır. Yuxululuğa başqa səbəb isə sinir-damar sistemində baş verə bilən dəyişikliklər ola bilər. Yəni orqanizmin bioritmləri var, bu bioritmlər hər fəsildə dəyişir. Yazda bioritmlər bir qədər yavaşlayır, sürəti azalır. Bu isə bəzi insanlarda yuxu yaradır. Yazın ilk dönəmində yuxu ilə mübarizə də zəifləməyə başlayır. Kartizolun artması da mübarizəni zəiflədir. Bu cür insanlar yatıb yuxularını almalı və qısa müddət istirahət etməlidirlər".

### Qanımız buna görə qaynayırmış...

Psixiatr Orxan Fərəcli isə günəş şüalarının, mövsümi faktorların beyində seratonin, yəni xoşbəxtlik hormonunun ifrazına təsir etdiyini vurğulayır. O, insanların çoxunun yaz dövründə özlərini yaxşı və xoşbəxt hiss etmələrinin bununla bağlı olduğunu deyir. Həmçinin vurğulayır ki, yaz fəslində depressiya əlamətləri daha qabarıq olur: "Bu zaman həyəcan, təşviş, boğulma kimi əlamətlər özünü göstərir. "Qan qaynayır" deyəndə insanda yeni qanın əmələ gəlməsini nəzərdə tuturlar. Yeni qanın əmələ gəlməsi isə bütün mövsümlərdə davam edən bir prosesdir. Yəni məhz yaz fəslində yeni bir şey baş vermir".

Psixiatr yazda yuxu rejiminə diqqət etməyi, vaxtlı-vaxtında yatıb-durmağı məsləhət görür. Günorta saatlarında yatmaqdan bacardıqca qaçmaq lazımdır. Payız və qış mövsümündən yaz üçün planlar qurmaq da depressiya və həvəssizliyin qarşısını ala bilər: "Yazda nə edəcəyiniz barədə yeni hədəflər müəyyənləşdirin. Qışın eyni templə davam edən əhvali-ruhiyyəsindən çıxmaq üçün bu, yaxşı bir fürsət olar. Çünki monoton həyat tərzi insanda depressiyaya səbəb olur. Nahaq yerə intiharı depressiya ilə əlaqələndirmirlər. İntihara səbəb olan amillərdən biri də depressiya və depressiyanın ən ağır forması olan bipolyar affektiv pozuntu deyilən xəstəlikdir. Uzun müddət insan depressiyada olur və birdən-birə əhvali-ruhiyyəsi yüksəlir. Bu hipotomlarda intihar riski bir az yüksəkdir. Yaz dövründə intihar hallarına çox rast gəlinmir. Amma kliniki tədqiqatlar deyir ki, bəzən bu, mümkündür".

**Yaşam**

## Cavanlıq və xoşbəxtlik meyvəsi

**Püstə çox faydalı və müalicəvi əhəmiyyəti olan meyvədir. Bu dadlı meyvənin tərkibində bir çox faydalı vitaminlər (B qrupu, E, C, PP, A), minerallar (mis, marqans, fosfor, selen, sink, kalium, maqnezium), əvəzolunmaz amin turşuları, polidoymamış yağ turşuları var.**



Püstə sinir sistemini qoruyur, əqli fəaliyyəti və əhvali-ruhiyyəni yaxşılaşdırır, streslə mübarizə etməyə kömək edir. Əqli fəaliyyətlə məşğul olan insanların püstəni öz rasionlarına daxil etmələri məsləhət görülür. Təsadüfi deyil ki, çinlilər bu meyvəni "xoşbəxt qoz" adlandırırlar. Həqiqətən də, püstə əhvali-ruhiyyəni yaxşılaşdırmaq qabiliyyətinə malikdir.

Antioksidantlarla zəngin olan püstə orqanizmdə gedən dağılma və qocalma proseslərini ləngidir, hüceyrələri qoruyur. Bu səbəbdən cavan və gümrah qalmaq istəyənlər mütləq püstə yeməlidir.

Püstə tərkibindəki nadir maddələr sayəsində gözləri qoruyur, ürəyin və damarların sağlamlığına müsbət təsir edir, qanda xolesterinin səviyyəsini aşağı salır, qaraciyərə faydalı olur.

E vitamini ilə zəngin olduğundan dərinin cavanlığı və sağlamlığı üçün çox faydalıdır.

Nəzərə almaq lazımdır ki, püstəni çox yemək olmaz. Gün ərzində 1 ovuc püstə yemək orqanizmi bir çox faydalı maddələrlə təmin edir.

Eyni zamanda bu meyvə allergiyaya, uşaqlarda isə hətta çox ağır allergik reaksiyaların, hətta anafilaktik şokun inkşafına səbəb ola bilər.

**Tədqiqat**

## Herodotun dövründən istifadə edilən - HİCAMA

**Yaz aylarında insanların ən çox üz tutduğu müalicə üsullarından biri də hicamadır.**



Bəs görəsən hicama nə deməkdir, bu üsulla bədənin təmizlənilməsi necə həyata keçirilir, hansı xəstəliklərə faydası var, hər kəs hicama qoydura bilərmi?

Fitoterapevt Elnur Eldaroğlu məlumat verir ki, hicama hacamat, həcəmət, qanalma, küpə üsuluyla müalicə kimi müxtəlif adlarla məşhurdur. Hacamat sözü ərəbcə əmmək mənasını verir (qanın sorulması).

Mənbələrə əsasən, hələ Herodotun dövründən Hippokrat zamanlarına kimi bu prosedur tətbiq edilirmiş. O dövrlərdə baş ağrıları (miqren və digər tiplər), kürək, boyun-bel ağrıları, ginekoloji problemlər, ağciyər xəstəlikləri, eləcə də yuxarı və aşağı ətraf patologiyaları zamanı hicama metodu tətbiq edilirmiş. Misir Papiruslarında da bu üsula rast gəlmək olar. Orta Şərqdə həkimlər Əbu-Bəkr Əl-Razi, İbnsina və Al-Zahravi küpə terapiyasından istifadə etmişdilər. Çində Mavanqdui Silk bunu tətbiq etmiş, eləcə də Avropada da bir çox xəstəliklərdə bu metoddan yararlanmışdılar. Qalen yaş hicama üsulunda küpə kimi buynuz, stakan, mis qablardan istifadə edirmiş.

Həkim qeyd edir ki, venadan (damardan) verilən qanın tərkibi ilə digər əzələ-oynaq nahiyəsindən alınacaq qan nisbətən fərqlidir: "Hicamanın 2 növü var: quru və yaş. Yəni quru qanalma zamanı banka hər hansı nahiyəyə sorucu qüvvə yaradaraq 3-7 dəqiqə qalır və heç bir kəsik aparılmır (qeyri-invaziv metod). Yaş hicama zamanı vakuum hesabına dolu qanlılıq yaranır, daha sonra isə həmin nahiyələrdə kiçik steril kəsik aparılır və həmin yerə yenidən banka qoyularaq sorulma vasitəsilə qan çıxarılıb atılır. Bəzən 2 dəfə banka qoyulan qanın dolub-atılması təkrarlanır (bu, xəstənin vəziyyətindən asılı olaraq dəyişir).

### Bu üsulla qan təmizlənir

Fitoterapevt söyləyir ki, küpə üsuluyla qanalmanın mexanizmi və terapevtik effekti tam aşkarlanmasa da, bir çox xəstəliklərdə müsbət nəticələr verir. Yaş Hicama metodu təxminən süni böyrək funksiyası kimidir. İn vivoda böyrək hidrofobik (suda həll olmayan) maddələrin filtrasiyasını həyata keçirir. Bu üsulda isə həm hidrofobik, həm də hidrofolik (suda həll olan) filtrasiyası prosesi həyata keçirilir. Yüksək təzyiq yaradaraq sorulmuş qan həcmi artır, həmçinin kapillyarların filtrasiyası hesabına hüceyrəarası maye filtrasiya olunur (təmizlənir). Təmizlənmiş qan xəstəliklərə səbəb olan prostaqlandinlərin iltihab mediatorlarının stimulyasiya olunmasının qarşısını alır. Skarpel vasitəsilə çərtilmiş sahədə hüceyrənin iltihab miqrasiyası və endogen opioid sintez sayəsində anadagəlmə və qazanılmış immunitet artır. Buna görə də qan axını yaxşılaşır, toxumaların oksigen təchizatı və perfuziyası artır, toksinlər xaric olur, neyroendokrin (sinir-hormonal) balans bərpa olunur.

Küpə üsuluyla qanalma zamanı mənfi təzyiq hesabına hiperemiya (doluqanlılıq) yaranır və həmin nahiyədə olan iltihablanmış (miqrasiya etmiş leykositlər), toksinlərlə zəngin trombositlər (qan lövhəcikləri), çox aşağı sıxlıqlı lipidlər, yağlar və digər zərərli maddələrlə dolu qan atılır.

### Kimlərə olar, kimlərə olmaz?

E.Eldaroğlu bildirir ki, profilaktika məqsədilə ildə 4 dəfə, müalicə məqsədilə 10 gündən və ya 2 aydan bir prosedur edilir, həkim nəzarəti ilə fasilə verilir.

Hicama baş, boyun, bel, diz, ayaq, digər sinir-əzələ ağrıları zamanı tətbiq edilir. Həmçinin sistem xəstəliklərdən revmatoid artrit, yüksək təzyiq (hipertoniya), ürək-damar xəstəlikləri, şəkərli diabet, psixoloji narahatlıqlar (mental pozulmalar), keçirilmiş xroniki xəstəliklərin reabilitasiya dövrü və dəri xəstəlikləri zamanı istifadə edilir.

Ürəyin işemik xəstəlikləri zamanı, antikoqaulyantların istifadəsi zamanı, edilən nahiyədə hər hansı infeksiya varsa, kəskin anemiya, hemofiliya, açıq yaralar, sümük qırılması, dərin vena trombozu, menstruasiya zamanı, hamiləlik və uşaqlıq qanaxmaları dövründə əks göstərişdir. Həmçinin çox kiçik yaş və heraitrik (çox yaşlı) insanlara tətbiq etmək məsləhət deyil. Xərçəng xəstələrinə mütləq göstəriş olmadan təyin edilməməlidir. Hər hansı qan laxtalanmasıyla bağlı problemi olanlarda qanda D-dimer səviyyəsinə baxılmalıdır. Ümumiyyətlə, ümumi qan analizinə diqqət edilməlidir.

Hicamada ağırlaşmalara da rast gəlmək olar. Başgicəllənmə, qanazlığı, ürəkbulanma, bayılma, infeksiya riski, yuxusuzluq və s.

Mütəxəssis onu da qeyd edir ki, hicama yüksək ixtisaslaşmış və prosedura yiyələnmiş feldşer və həkimlər tərəfindən tibb mərkəzlərində edilməlidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Ucar Meliorasiya İdarəsi
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT-1 Hidrotexniki qurğuların cari və əsaslı təmiri üçün mal-materialların satın alınması.

İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş"vasitəsilə həyata keçirilə bilər. Tenderdə iştirak etmək istəyən iddiaçılar "ASAN Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərlər.

İştirak haqqı: 100 AZN

Tenderlə əlaqədar məlumat almaq üçün electron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: Həşimov Qəzənfər Möylam oğlu
Ünvan: **AZ6116, Ucar rayonu, Qarabörk kəndi**
Tel: **(020) 21 3-01-63**
**Adı: Ucar Meliorasiya İdarəsi**
**H/hesabı: AZ53CTRE00000000000002351902**
**VÖEN: 7400067121**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT kod: CTREAZ22**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox) qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 09.04.2021-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə 19.04.2021-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 20.04.2021-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Qeyd: Tenderdə iştirak, təkliflərin qiymətləndirilməsi və digər bütün prosedurlar elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu
### *açıq tender elan edir*

Fondun (qurumları) Aparatı və struktur bölmələri üçün 2020-ci il üzrə illik maliyyə göstəriciləri əsasında hazırlanmış Maliyyə Hesabatlarının Beynəlxalq Standartların tələblərinə uyğunlaşdırılması və aidiyyəti işlər üzrə məsləhət xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 400,00 ( dörd yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: - 142330**
**Büdcə səviyyəsinin kodu: - 4**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən iştirak haqqı geri qaytarılmır.

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019 və 2020-ci illər üzrə);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) - 12.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat Dövlət Statistika Komitəsindən alınmalıdır (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması, o cümlədən beynəlxalq və yerli səviyyədə sertifikatlaşmış, minimum 5 (beş) illik təcrübəyə malik mütəxəssis bazasına malik olması;*
- *ISO 37001:2016 sertifikatına məxsus olması;*
- *peşə məsuliyyətinin sığortası şəhadətnaməsinin mövcudluğu;*
- *şirkətin bazarda minimum 10 (on) il fəaliyyətinin mövcud olması;*
- *dövlət qurumları ilə əməkdaşlıq təcrübəsinin olması (minimum 5 (beş) il).*

**Qeyd 1:** Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

**Qeyd 2:** İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.04.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **19.04.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.04.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd 3:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Kommunal Xidmətlər Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 12.03.2021-ci il tarixdə "Nəqliyyat və xüsusi texnikaların satın alınması" üzrə keçirilmiş açıq tenderdə "İMPROTEX TRUCKS AND BUSES" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# Azərbaycanda sutka ərzində koronavirusa 733 nəfər yoluxub

Azərbaycan Respublikasında sutka ərzində koronavirus infeksiyasına 733 nəfər yoluxub, 265 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 239 min 692 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 230 min 726 nəfər müalicə olunaraq sağalıb, 3276 nəfər vəfat edib. Aktiv xəstə sayı 5690 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 701 min 181 test aparılıb. Dünənki test sayı isə 10470-dir.





# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu
### *açıq tender elan edir*

Fondun (qurumları) Aparatı və onun struktur bölmələrində 31 dekabr 2020-ci il tarixinə aktivləri və öhdəliklərinin qiymətləndirilməsi xidmətinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 500,00 (beş yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019 və ya 2020-ci illər üzrə);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); - 12.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat Dövlət Statistika Komitəsindən alınmalıdır (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *şirkətin bazarda minimum 5 (beş) il fəaliyyətinin mövcud olması;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması, o cümlədən beynəlxalq və yerli səviyyədə sertifikatlaşmış, minimum 5 (beş) illik təcrübəyə malik mütəxəssis bazasına malik olması;*
- *dövlət qurumları ilə əməkdaşlıq təcrübəsinin olması (minimum 5 (beş) il);*
- *Peşə Məsuliyyətinin Sığortası şəhadətnaməsinin mövcudluğu;*
- *Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin üzvü olması və Beynəlxalq Qiymətləndirmə Standartlarının tətbiq edilməsi.*

**Qeyd 1:** Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

**Qeyd 2:** İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.04.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **19.04.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.04.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd 3:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Tender bildirişi

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Nümayəndəliyi kvalifikasiyalı iddiaçıları Azərbaycanda məcburi köçkünlərə və münaqişədən təsirlənmiş digər şəxslərə hüquqi yardım və məsləhət xidmətlərinin göstərilməsi üçün RFP/AZE/001/2021 nömrəli tenderdə iştirak etməyə dəvət edir. Bu fəaliyyətin məqsədi Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan olan məcburi köçkünlərə hüquqi yardım və məsləhət xidmətlərindən istifadə imkanı təmin etməkdir. Tələb olunan tender sənədlərinə aşağıdakı qaydada giriş əldə etmək olar:

- E-mail: azeba@unhcr.org elektron poçt ünvanına sorğu göndərmək.
- Tender sənədlərini hər iş günü səhər 10:00-dan 16:00-dək buradan əldə etmək olar: Azərbaycan, AZ1014, Bakı, Mirzəağa Əliyev küç., 210, Winter Park Plaza, BMTQAK.
- Maraqlananlar tender sənədlərini bu saytlardan da yükləyib götürə bilərlər: www.azerweb.com və https://azerbaijan.un.org/az/114698-tender-leal-aid-and-counseling-idps.

Təkliflərin təqdim edilməsinin son müddəti **02 aprel 2021-ci il saat 23:59-a qədərdir.**

## Tender Notice

The Representation of the United Nations High Commissioner for Refugees invites qualified companies to participate in the tender RFP/AZE/001/2021 Legal Aid and Counselling to IDPs and other conflict-affected individuals in Azerbaijan. The goal of this activity is providing IDPs from Nagorno-Karabakh and seven adjacent districts with an access to legal aid and counselling services. Access to the required tendering documents can be obtained as follows:

- E-mail: Send an e-mail request to azeba@unhcr.org
- Tender documents are available at: UNHCR, Winter Park Plaza, 210 Mirzaagha Aliyev str. Baku, AZ1014, Azerbaijan, every working day between 10:00 am until 16:00 pm
- Interested companies can download tender documents from www.azerweb.com and https://azerbaijan.un.org/az/-114698-tender-leal-aid-and-counseling-idps

The Deadline for submission of offers is **23:59Hrs on 02 April 2021**


«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Firdovsi Cəbrayılov ailəsi ilə birlikdə Ənvər Seyidova həyat yoldaşı

AYBƏNİZ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5246
Sifariş 469
Qiyməti 40 qəpik